QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 153 (5873) **24 avqust** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Azərbaycanın hər bölgəsində yol-nəqliyyat infrastrukturu müasirləşdirilir

*Prezident İlham Əliyev: "Davos Ümumdünya İqtisadi Forumunun hesabatında avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü yerdədir"*

Səh 2



6

**YAP-ın Suraxanı, Sabunçu və Pirallahı rayonlarının ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib**



6

**Nikol Paşinyan Cermuxda etirazlarla qarşılanıb!**



13

**Əli Kərimli gəncləri aqressiv formada qanunları pozmağa məcbur edir**



# Azərbaycanın hər bölgəsində yol-nəqliyyat infrastrukturu müasirləşdirilir

## *Prezident İlham Əliyev: "Davos Ümumdünya İqtisadi Forumunun hesabatında avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü yerdədir"*

***İnkişaf və tərəqqi dövrünü yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkənin əsas inkişaf göstəriciləridir. Xüsusilə, regionların sosial-iqtisadi inkişafı ilə bağlı mərhələli dövlət proqramlarının qəbul və icra olunması hər bir bölgənin davamlı inkişafını təmin edib. Təbii ki, bu uğurlar ölkəmizdə hökm sürən sabitliyin və əmin-amanlığın mövcudluğunu təsdiqləyir.***



Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur və vəziyyət mənfi istiqamətdə inkişaf edir: "Azərbaycan isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik şəraitində öz yolu ilə uğurla gedir. Bu gün inkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə, Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir".

Bölgələrdə yeni zavod, fabrik və digər istehsal müəssisələrinin fəaliyyətə başlaması işsizlik problemini aradan qaldırmaqla yanaşı, regionların malik olduğu potensialdan düzgün istifadə mexanizmlərini də üzə çıxarır. Güzəştli kreditlər hesabına maliyyələşdirilən, müasir texnologiyaların tətbiqinə əsaslanan layihələrdən olan və ölkə əhalisinin keyfiyyətli ərzaq məhsullarına tələbatının ödənilməsinə xidmət edən müasir aqroparkların yaradılması xüsusi əhəmiyyətə malikdir. Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, aqrar sahədə intensiv texnologiyaların tətbiqi ilə bağlı tapşırığına uyğun olaraq, artıq ölkəmizdə aqroparklar yaradılıb. Aqroparkların yaradılması ölkənin ixrac coğrafiyasının genişləndirilməsində əhəmiyyətli rol oynayır.



Son 16 ilin reallıqları, bir daha göstərir ki, ölkəmizdə icra olunan islahatlar və həyata keçirilən dövlət proqramları bütün sahələrdə uğurların əldə olunması ilə nəticələnib. "Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır. Eyni zamanda, bizim əsas strateji məqsədimiz, hədəfimiz ölkəmizi daha da gücləndirməkdir, Azərbaycan dövlətinin qüdrətini artırmaqdır, müstəqilliyimizi möhkəmləndirməkdir" deyən Cənab Prezident regional inkişaf proqramlarının icrasının nəticələrinin göz qabağında olduğunu bildirib.

Qarşıya qoyulan vəzifələrin uğurlu icrası sayəsində respublikamızın bütün bölgələrinin siması tamamilə dəyişmiş, rayonların ucqar kəndləri belə qazlaşdırılıb, yaşayış məntəqələri içməli su ilə təmin olunub və demək olar ki, şəhərlə kənd arasındakı fərq aradan qaldırılıb.

### 6 AYDA TƏXMİNƏN 400 KİLOMETRƏ YAXIN AVTOMOBİL YOLU ÇƏKİLİB

Dövlətimizin başçısının tapşırıq və göstərişlərinə əsasən, son illərdə kənd yollarının yenidən qurulması və mövcud yolların müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunub. Azərbaycanın regionlarında, paytaxt Bakıda yol-nəqliyyat infrastrukturu müasirləşdirilir, avtomobil yolları şəbəkəsi yenidən qurulur. Yeni yolötürücüləri, körpülər, tunellər, yerüstü və yeraltı piyada keçidləri inşa edilir. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar ölkədə yol infrastrukturunun təzələnməsini daha da sürətləndirir. Bölgələrdə yaşayan əhalinin gediş-gəlişi asanlaşır və yetişdirdikləri məhsulun mərkəzə daşınmasında əvvəllər mövcud olan çətinliklər aradan qalxır. Həmin yollar hesabına, təbii ki, regionların iqtisadi potensialı da yüksəlir. Təbii ki, avtomobil yolları hər bir ölkənin iqtisadi qüdrətinin göstəricisidir. Ölkənin istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa olaraq yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır.

Müasir nəqliyyat-yol infrastrukturunun yaradılmasını qarşıya əsas hədəf kimi qoyan Prezident İlham Əliyev avtomobil yollarının, yol qurğularının açılış mərasimlərində şəxsən iştirak edir, habelə, işlərin gedişi ilə tanış olaraq, öz dəyərli tapşırıq və tövsiyələrini verir. Ölkə başçısının tapşırığı ilə son 16 ildə yol infrastrukturunun müasir səviyyədə yenidən qurulması istiqamətində həyata keçirilən layihələr nətitəcisində, 16 min kilometr yol çəkilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə, dövlət başçısının vurğuladığı kimi, bu il də kənd yollarının, şəhərlərarası yolların çəkilişi nəzərdə tutulur: "Təxminən, min kilometrə yaxın yolun çəkilişi nəzərdə tutulur. Məndə olan məlumata görə, altı ayda, təxminən, 400 kilometrə yaxın avtomobil yolu çəkilib. Bu, demək olar ki, Azərbaycanda yol infrastrukturunun tamamilə yenilənməsinə gətirib çıxardı. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun hesabatında avtomobil yollarının keyfiyyətinə görə, Azərbaycan dünyada 34-cü yerdədir. Əminəm ki, bizim yerimiz daha da irəliləyəcək. Çünki bu sahəyə, doğrudan da, çox böyük investisiyalar qoyulur və bundan sonra da qoyulacaq".

Prezident İlham Əliyevin regionlarda nəzərdə tutulan bütün infrastruktur layihələrin icra edilməsinin, insanların həyat şəraitinin yaxşılaşmasına birbaşa təsir edən turizmin və kənd təsərrüfatının inkişafına gətirib çıxaran kənd və qəsəbələrarası avtomobil yollarının tikintisi istiqamətində genişmiqyaslı işlər aparılır. Kəndlərarası və qəsəbələrarası avtomobil yolu layihəsi, habelə, digər respublika əhəmiyyətli və magistral avtomobil yollarının layihələrinin icrası həyata keçiriləcək.

Bütün bunlar Cənab Prezidentin düşünülmüş siyasətinin məntiqi nəticəsidir. Ölkəmizin inkişafı istiqamətində həyata keçirilən layihələr öz nəticəsini verir. Respublikamızın bütün sahələrdə böyük uğurlar qazanması, maliyyə imkanlarının artması, ölkəmizin transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış etməsi, müasir tələblərə cavab verən infrastruktur yaradılması, ən yeni texnologiyalara əsaslanan müəssisələrin fəaliyyətə başlaması Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini getdikcə möhkəmləndirmişdir. Bu gün, həqiqətən də, Azərbaycanın hər bir bölgəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Ölkəmizdə bölgələrin sosial-iqtisadi inkişafı başlıca prioritetlərdən biri kimi müəyyənləşdirilib, qarşıya qoyulan hədəflərə uyğun olaraq, bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi davamlı xarakter daşıyır. İstər yeni sosial iaşə obyektlərinin, istərsə də, digər infrastrukturların tikilməsi və yenilənməsi insanların sosial rifahının yüksəlişinə xidmət göstərir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# İctimai-siyasi fəaliyyəti ilə örnək olan Azərbaycanın Birinci Xanımı

## *Mehriban Əliyeva: “Dövlət başçısının xanımı kimi mənim üçün həmişə ən vacibi o olmuşdur ki, mən öz ölkəm üçün nə edə bilərəm”*



***Həyatda özünü əməli fəaliyyətlə doğrultmaq, yüksək imic sahibi olmaq, ölkəninin ictimai-siyasi və mədəni həyatında sözünü demək güclü iradə, böyük istedad və yaradıcılıq tələb etdiyi kimi, vətənə olan ülvi sevginin də olması vacib şərtdir. Belə bir fəaliyyət sərhədləri aşır, bir qitədən digər bir qitəyə yollar açaraq, Odlar Diyarı haqqında məlumatları dünya ölkələrinə çatdırır. Özü də dostluq, qarşılıqlı maraq, hörmət əsasında qurulan əlaqələrdə Azərbaycan həqiqətlərini paylaşmaq, müxtəlif dinə, əqidəyə sahib ölkələrə olduğu kimi çatdırmaq nə qədər çətin və məsuliyyətli olsa da, bunun arxasında olan mənəvi rahatlıq və vətən xidmət insana tükənməz enerji bəxş edir.***

Bu gün dünyada Azərbaycanın Birinci Xanımı kimi tanınan və böyük nüfuza malik olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban Əliyeva ictimai, mesenatlıq və xeyriyyəçilik əməlləri, xalqlar arasında dostluğun möhkəmlənməsi, sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyəti, qayğıya ehtiyacı olan uşaqlara, təhsilə diqqəti və s. geniş layihələri ilə yorulmadan çalışır və vətənə xidməti ali məqsədinə çevrilib. Milyonlarla insanın sevgisini qazanmış Azərbaycanın Birinci Xanımının hər bir əməli və fəaliyyəti humanizm prinsiplərinə söykənir.

Mehriban xanım Əliyeva ölkəmizin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşdırılmasına dəstək verən, eləcə də, tariximizin, mədəniyyətimizin, incəsənətimizin, Azərbaycan həqiqətlərinin bütün dünyada tanıdılması istiqamətində müxtəlif proqram və layihələri reallaşdırır. Sosial məsələlərin həllinə, sosial cəhətdən həssas qrupların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirlərinə dəstək verilməsi üçün ardıcıl və əhatəli layihələr və proqramlar həyata keçirilir.

### “BİZİM HƏYATA KEÇİRDİYİMİZ HƏR BİR LAYİHƏ, İLK NÖVBƏDƏ, VƏTƏNDAŞLARIN MARAQLARINI QORUMAĞA, KÖMƏYƏ EHTİYACI OLAN İNSANLARA YARDIM ETMƏYƏ YÖNƏLİB”

“Fondun fəaliyyətinin əsas istiqamətlərindən biri Azərbaycan cəmiyyətinin müdafiəyə ən çox ehtiyacı olan üzvlərinə, uşaq evləri və internatlardakı uşaqlara və yeniyetmələrə, qaçqın və məcburi köçkün uşaqlarına, habelə, müxtəlif xəstəliklərə mübtəla olan uşaqlara yardım göstərilməsi ilə bağlıdır” deyir Mehriban xanım Əliyeva. Odur ki, valideyn himayəsindən və ailə qayğısından məhrum olan uşaqların cəmiyyətə inteqrasiyasına dəstək, onların asudə vaxtının səmərəli təşkili üçün, mütəmadi olaraq, həyata keçirilən tədbirlər Heydər Əliyev Fondunun diqqət mərkəzində saxladığı məsələlərdəndir. Mehriban xanım Əliyevanın xeyirxah missiyasının davamı olaraq, Bakıda yaradılan Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqların Dövlət Reabilitasiya Müəssisəsi ölkədə uşaqlar üçün yüksək standartlara uyğun reabilitasiya infrastrukturunun genişlənməsinə imkan verir. Fondun mühüm sosial layihələrindən biri olan “Məzun Evi” Sosial Müəssisəsidir. Müəssisədəki iki yaşayış binasında valideyn himayəsindən məhrum olmuş 243 gənc mənzillə təmin edilib.

“Uşaq evləri və internat məktəblərinin inkişafı” Proqramı çərçivəsində respublika üzrə uşaq müəssisələri əsaslı şəkildə təmir edilmiş, yeni avadanlıqla təchiz olunmuş, əlavə yardımçı binalar tikilmiş və kommunal şərait yaxşılaşdırılmışdır. Azərbaycanın Birinci Xanımının təşəbbüsü ilə uşaq evlərində tərbiyə almış, yaşı 18-dən yuxarı olan qızlar üçün Bakının Nizami rayonunda 50 mənzilli yaşayış binası tikilib istifadəyə verilmişdir. Mehriban Əliyeva bildirib ki, fondun fəaliyyətinin əsas istiqamətlərindən biri Azərbaycan cəmiyyətinin müdafiəyə ən çox ehtiyacı olan üzvlərinə, uşaq evləri və internatlardakı uşaqlara və yeniyetmələrə, qaçqın və məcburi köçkün uşaqlarına, habelə, müxtəlif xəstəliklərə mübtəla olan uşaqlara yardım göstərilməsi ilə bağlıdır. Fondun fəaliyyət göstərdiyi dövr ərizində, bu sahədə çox işlər görülüb. Bu gün sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisələri olan Bakının Xəzər rayonunun Şağan qəsəbəsindəki 3 saylı və Abşeron rayonunun Saray qəsəbəsindəki 7 saylı internat evləri fəaliyyət göstərir. Fiziki və əqli qüsurlu uşaqlar üçün nəzərdə tutulan həmin internat evlərində, ümumilikdə, 300-dən artıq uşaq tam dövlət himayəsində yaşayır.

Bu gün Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva təmsil olunduğu bütün sahələrdə fədakar fəaliyyəti ilə seçilir. “...Birinci xanım statusunda mən elə bir xeyriyyə aksiyası keçirə bilmirəm ki, o, ictimaiyyətin diqqətini cəlb etməsin. Bu isə, özünü göstərməkdən tamamilə uzaq adam kimi mənə kifayət qədər çətin olur” deyən Mehriban Əliyeva böyük işləri və amalları ilə diqqətdədir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə təsis edilən “Regional İnkişaf” İctimai Birliyi də vətəndaş cəmiyyəti quruculuğunda əhəmiyyətli layihələr reallaşdırıb. Bölgələrdə yaşayan vətəndaşların üzləşdiyi problemlərin, yerli əhalini kompleks şəkildə narahat edən məsələlərin aradan qaldırılması kimi məsələləri, əsas məqsəd kimi, qarşıya qoyaraq elm, təhsil, səhiyyə, mədəniyyət, sosial, idman, ekologiya, İKT və infrastruktur layihələri həyata keçirir. Mehriban xanım Əliyevanın vurğuladığı kimi, bizim həyata keçirdiyimiz hər bir layihə, ilk növbədə, vətəndaşların maraqlarını qorumağa, köməyə ehtiyacı olan insanlara yardım etməyə yönəlib: “Regional İnkişaf” İctimai Birliyini təsis edərkən, əsas məqsədimiz dövlət qurumları, qeyri-hökumət təşkilatları, sahibkarlar və yerli əhali arasında konstruktiv əməkdaşlıq modeli yaradaraq, insanları narahat edən problemlərin aradan qaldırılmasına nail olmaq idi. Düşünürəm ki, biz bunu bacardıq”.

### DÜNYƏVİ MÜSƏLMAN ÖLKƏSİ OLAN AZƏRBAYCAN YALNIZ XRİSTİAN ALƏMİNƏ AİD MÜQƏDDƏS YERLƏRİN VƏ TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN BƏRPASINDA İŞTİRAK ETMİR, EYNİ ZAMANDA, ÜMUMDÜNYA ƏHƏMİYYƏTLİ ABİDƏLƏRİ BƏRPA EDİR

Millət və dövlət maraqları baxımından, müstəsna əhəmiyyətə malik bir sıra layihələri uğurla gerçəkləşdirərək, cəmiyyətdə mərhəmət və xeyirxahlığın ali ünvanına çevrilmiş Heydər Əliyev Fondunun qarşıya qoyduğu hər bir xoş məram, ilk növbədə, Ümummilli Liderin ali ideallarını özündə ehtiva edir. Azərbaycanın Birinci Xanımının fəaliyyəti aşılmaz sayılan sərhədləri belə adlayır. Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr, ölkələr arasında əməkdaşlığın inkişafında əhəmiyyəti ilə seçilir. Bu gün deyə bilərik ki, dünyanın bütün ölkələrində fondun həyata keçirdiyi layihələrə münasibət yüksəkdir. Azərbaycanın Birinci Xanımı sivilizasiyalararası dialoqa töhfə verməklə yanaşı, məktəblərin tikintisinə, dini məbədlərin bərpasına da köməklik göstərir. Fondun layihələrindən olan “Azərbaycan - tolerantlığın ünvanı” layihəsi çərçivəsində müsəlman məscidləri ilə yanaşı, xristian kilsələri də bərpa edilib. Mehriban xanım Əliyevanın, müsahibələrinin birində dediyi kimi, dünyəvi müsəlman ölkəsi olan Azərbaycan yalnız xristian aləminə aid müqəddəs yerlərin və tarixi-mədəni abidələrin bərpasında iştirak etmir, eyni zamanda, ümumdünya əhəmiyyətli abidələri də bərpa edir. Bu, fondun həyata keçirdiyi mühüm siyasətidir.

Ardı Səh. 4

# İctimai-siyasi fəaliyyəti ilə örnək olan Azərbaycanın Birinci Xanımı

## *Mehriban Əliyeva: "Dövlət başçısının xanımı kimi mənim üçün həmişə ən vacibi o olmuşdur ki, mən öz ölkəm üçün nə edə bilərəm"*



Əvvəli-Səh-3

Azərbaycanda yaşayan yəhudi uşaqları üçün məktəb və mədəni mərkəz inşa olunub. Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpası Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə bir daha ehtiva edir. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombaların bərpasında əhəmiyyətli işlərə imza atmışdır. Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir və bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazıldı. Romanın belə nüfuzlu arxeoloji abidəsinin bərpasına töhfəsini verən Heydər Əliyev Fondu tarixi missiyasını həyata keçirmiş oldu. Qeyd olunan layihə çərçivəsində Bakıdakı Pravoslav kilsəsində təmir-bərpa işləri aparılıb. Layihənin digər tərkib hissəsi "Or-Avner" Beynəlxalq Fondu ilə birgə Bakıda yaşayan yəhudi uşaqları üçün 600 yerlik Təhsil Mərkəzi inşa olunub. Azərbaycanda məskunlaşan xalqların etnomədəni komponentlərinin inkişafına yönələn tədbirlərin həyata keçirilməsi istiqamətində də Azərbaycanda görülən işlər, məhz müasir dövrümüzdə dövlətin bütün millətdən olan insanlara diqqət və qayğı ilə yanaşmasının nəticəsidir. Fond tərəfindən Bakıdakı Müqəddəs Məryəm kilsəsi təmir və bərpa olunmuşdur.

Heydər Əliyev Fondunun Fransanın Orn Departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım etməsi də "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində reallığa çevrilib.

Bütün dünyada, eləcə də, islam dünyasında böyük hörmətə və nüfuza malik olan Azərbaycan dostluğun möhkəmlənməsinə, insani dəyərlərə, sülh və əmin-amanlığa, üstünlük verərək, sülsevər siyasətini dünyaya göstərir. Heydər Əliyev Fondunun 2005-ci ildə Pakistanda baş verən dağıdıcı zəlzələdən dərhal sonra bu ölkədə xeyriyyəçilik fəaliyyətlərinə başlaması və Müzəffərabadın Rara bölgəsində 500 şagirdlik qızlar məktəbi tikdirməsi görülən işlərin davamıdır.

### ÖLKƏMİZDƏN KƏNARDA APARDIĞI XEYRİYYƏÇİLİK İŞLƏRİ BEYNƏLXALQ ALƏMDƏ QİYMƏTİNİ ALIB

Həyatın müxtəlif sahələrindəki roluna və fəaliyyətinə görə, bir çox mükafatlara layiq görülüb. Mehriban Əliyeva mədəni-mənəvi dəyərlərin qorunub-saxlanmasına verdiyi töhfələrə görə, BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (WIPO) qızıl medalına layiq görülüb. Sivilizasiyalararası dialoq da daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşmasına, təhsilə, həmçinin, islam aləmində görülən işlərə böyük dəstəyinə görə, ISESCO-nun Xoşməramlı Səfiri adına layiq görülüb. Azərbaycan Respublikasının Prezidentinin 2009-cu il 5 may tarixli Sərəncamı ilə Mehriban Əliyeva Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə, Heydər Əliyev Mükafatı ilə təltif edilib. Onun Fransanın "Şərəf Legionu" ordeni, Küveytin "Fəxri diplom"u, Polşanın "Xidmətlərə görə" ordeni, Serbiyanın "Sreten" ordeni, Pakistanın "Hilal-e-Pakistan" ordeni və s. ilə təltifi gördüyü işlərə verilən qiymətdir.

Rusiya ilə də əlaqələrin daimi diqqətdə saxlanılmasını vurğulamaq yerinə düşər. Elə bu yaxınlarda Azərbaycan-Rusiya münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsindəki xidmətlərinə görə, Rusiya Prezidenti Vladimir Putinin Fərmanı ilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Federasiyasının "Dostluq" ordeni ilə təltif olunması Onun fəaliyyətinə və əməyinə verilən qiymətdir. Elə Moskvadakı Xilaskar İsa Məbədində Azərbaycanın Birinci vitse-prezidentinə Rus Pravoslav Kilsəsinə göstərdiyi köməyə və Həştərxan şəhərinin abadlaşdırılmasına qayğısına görə II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə təltif edilməsi də bu əməllərdən qaynaqlanır.

Mehriban Əliyevanın təşəbbüsü ilə 2012-ci ilin sentyabrında Həştərxanda Rusiya-Azərbaycan Dostluq Körpüsü, 2013-cü ildə Rusiyanın Volqoqrad şəhərində "Volqoqrad-Bakı Dostluq Parkı" istifadəyə verilmişdir. Onu da vurğulayaq ki, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə, Azərbaycanın Birinci vitse-prezidenti Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə layiq görülmüşdü. Daha sonra "İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru" Diplomu və Xatirə nişanı ilə təltif edilib.

### DÖVLƏTÇİLİYİMİZ TARİXİNDƏ AZƏRBAYCANIN BİRİNCİ XANIMI STATUSU

Azərbaycan dövlətçiliyi tarixində, ilk dəfə olaraq, Birinci Xanım statusunu, məhz Mehriban Əliyeva formalaşdıraraq cəmiyyətin həyatına Birinci Xanım ənənəsini gətirmişdir. Adətən, hər bir ölkənin birinci xanımı öz ölkəsində elmə, mədəniyyətə və təhsilə diqqət yetirir. Mehriban xanımın diqqətindən kənarda isə heç bir sahə qalmır. O, bütün bilik və bacarığını müxtəlif humanitar təşəbbüslərin reallaşmasına sərf edir. Müsahibələrinin birində Birinci Xanım olmaq yükünün nə dərəcədə ağır olduğunu belə izah edir: "Hər şey bu və ya digər insanın öz vəzifələrinə nə dərəcədə ciddi yanaşmasından asılıdır. Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və ya öz ailəni yox, öz ölkəni təmsil edirsən. Bu barədə özünə hesabat verməli, sözlərində, qərarlarında, hərəkətlərində daha təmkinli olmalısan. Bu, çox məsuliyyətli yükdür".

Azərbaycanda son illər ərzində formalaşmış Birinci Xanım institutu dünyanın bir çox ölkələri üçün örnək ola bilər. Mehriban Əliyevanın xalq üçün gördüyü işlərin miqyası geniş və olduqca əhəmiyyətlidir. "Dövlət başçısının xanımı kimi mənim üçün həmişə ən vacibi o olmuşdur ki, mən öz ölkəm üçün nə edə bilərəm" deyir Mehriban Əliyeva.

Mehriban Əliyevanın humanizm, mərhəmət və nəciblik kimi ali mənəvi keyfiyyətlərindən irəli gələn əzmkar və çoxşaxəli fəaliyyətinin təməlində, məhz millətə layiqli xidmət məramı dayanır.

### AZƏRBAYCAN RESPUBLİKASININ BİRİNCİ VİTSE-PREZİDENTİ FƏDAKAR ƏMƏYİ İLƏ DAİM SEÇİLİR

Uzun illər ölkənin ictimai-siyasi, mədəni-humanitar və sosial həyatında mühüm və fəal rol oynayan Mehriban Əliyeva Prezident İlham Əliyevin 2017-ci il fevralın 21-də imzaladığı Sərəncamla Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olundu. "...Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı Ona böyük rəğbət və sevgi ilə yanaşır" bu sözləri Azərbaycan Prezidenti Cənab İlham Əliyev Mehriban xanım Əliyevanın ünvanına söyləyib. Artıq Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Birinci vitse-prezidentlik institutu funksional təsisat kimi uğurla fəaliyyət göstərir. Ötən qısa müddətdə, əldə olunan uğurlar təsdiqləyir ki, Birinci vitse-prezidentlik institutu idarəetmənin çevikliyini və səmərəliliyini artırıb. Birinci vitse-prezident kimi fəaliyyətini sosial məsələlərin, əhalinin aztəminatlı hissəsinin problemlərinin həlli üzərində qurmaq niyyətində olduğunu bəyan edən Mehriban xanım Əliyeva mərhəmətsizlik və laqeydliyin qorxulu anlayış olduğunu diqqətə çatdıraraq, istər ictimai xadim, istərsə də dövlət məmuru üçün humanizmi qorumağın vacib olduğunu vurğulayıb. O, vitse-prezident kimi, ilk addımını ən çətin sahədə atmış oldu. Belə ki, qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində atdığı ardıcıl addımlar öz nəticəsini verib. Birinci vitse-prezidentin diqqət və qayğısı sayəsində "Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması" layihəsi çərçivəsində işlər uğurla davam etdirilir. Artıq layihə çərçivəsində çoxlu sayda mənzil məcburi köçkün soydaşlarımızın ixtiyarına verilib.

Ötən müddət ərzində, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən mühüm layihələrdən biri də 2016-cı ilin aprel döyüşlərində yaralanmış əsgər və zabitlərimizin fəal həyat tərzinin təmin olunması oldu. Hər birinə fərdi yanaşma nümayiş etdirilərək, fərdi xüsusiyyətləri, aktivlik dərəcələri, həyat tərzləri, məşğuliyyətləri və fərdi tələbləri əsasında aprel döyüşlərinin xəsarət almış qəhrəmanları yüksək texnologiyalara əsaslanan müasir protezlərlə təmin edildi.

Ardı Səh. 5

# İctimai-siyasi fəaliyyəti ilə örnək olan Azərbaycanın Birinci Xanımı

## *Mehriban Əliyeva: "Dövlət başçısının xanımı kimi mənim üçün həmişə ən vacibi o olmuşdur ki, mən öz ölkəm üçün nə edə bilərəm"*







Əvvəli-Səh-4

### HƏR İŞDƏ PEŞƏKARLIQ

Ölkəmizin iqtisadi qüdrətinin yüksəlməsi, sosial inkişafı bütün sahələrdə böyük nailiyyətlərin əldə olunmasına ciddi zəmin yaradıb. Ölkə başçısı İlham Əliyevin, ardıcıl olaraq, həyatın bütün sahələrinin inkişafı üzrə həyata keçirdiyi islahatlar, qəbul olunmuş dövlət proqramları Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri arasında özünə layiqli yer tapmasına şərait yaradıb. Azərbaycanın sürətli inkişafı ölkəmizdə idman hərəkatının daha geniş vüsət almasına səbəb olub. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strategiyaya uyğun olaraq, idman ölkədə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Ölkəmizdə dövlət səviyyəsində idmana və Olimpiya Hərəkatının inkişafına göstərilən diqqət və qayğının nümunəsinin nəticəsidir ki, Birinci Avropa Oyunları Bakıda keçirildi. Son dərəcə maraqlı, qədim tarixi və zəngin mədəni dəyərləri olan Azərbaycanın Avropanın həyatında baş verəcək ilk belə hadisəyə ev sahibliyi etməsi, həm də ölkəmizin idman sahəsində son illərdə qazandığı uğurlardan qaynaqlanırdı. İlk Avropa Oyunlarının Təşkilat Komitəsinə Mehriban Əliyevanın Sədr təyin edilməsi, artıq hər şeyi demiş oldu. Təşkilatçılıq bacarığı ilə seçilən Azərbaycanın Birinci Xanımının rəhbərliyi ilə indiyə qədər keçirilən bütün tədbirlər yüksək təşkilatçılıq səviyyəsi və keyfiyyət standartı ilə seçilib. Məhz Azərbaycan dövlətinin iradəsi, Mehriban xanım Əliyevanın təşkilatçılıq qabiliyyəti sayəsində "Eurovision" tarixində yeni keyfiyyət standartı müəyyən edildi və ölkəmiz böyük miqyaslı yarışı ən yüksək səviyyədə keçirməklə nüfuz qazandı. Mehriban Əliyeva, üzərinə düşən öhdəliyi böyük məsuliyyətlə yerinə yetirdi. Hər işdə peşəkar olduğunu bir daha göstərdi. 2017-ci ildə isə paytaxtımızda keçirilən İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinə Mehriban Xanım Əliyevanın Sədrlik etməsi də, əlbəttə ki, IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ilin ən böyük idman hadisəsi olduğuna şübhə yaratmadı.

2016-cı il yanvarın 21-də Avropada idmanın inkişafında göstərdiyi xüsusi xidmətlərə görə, Avropa Olimpiya Komitələrinin İcraiyyə Komitəsinin qərarı ilə Avropa Olimpiya Komitələrinin ən yüksək mükafatı olan Ali Orden Mehriban Əliyevaya təqdim edilib.

### "HƏR BİR CƏMİYYƏTDƏ MƏRHƏMƏT, İNSANPƏRVƏRLİK, QAYĞI KİMİ HİSSLƏR ƏSAS YER TUTMALIDIR"

Azərbaycanın Birinci Xanımı Mehriban xanım Əliyevanın Milli Məclisin deputatı olduğu illərdə amnistiya təşəbbüsləri də cəmiyyətimizdə geniş rezonans doğurdu və bu, Mehriban xanımın humanizm prinsiplərinə sadiqliyini təsdiq etmiş oldu. Milli Məclisdəki fəaliyyəti dövründə Mehriban xanım Əliyeva humanizm prinsiplərinə sadiqliyini dəfələrlə sübut etmişdir. Onun təşəbbüsü ilə hazırlanmış Amnistiya Aktları 2007, 2009, 2013 və 2016-cı illərdə Milli Məclis tərəfindən qəbul olunmuş, nəticədə, minlərlə məhkum müxtəlif növ cəzalardan azad edilmişdir. "Hər bir cəmiyyətdə mərhəmət, insanpərvərlik, qayğı kimi hisslər əsas yer tutmalıdır. O cəmiyyətdə ki, həm dövlət qurumları, həm vətəndaş cəmiyyəti, məhz bu prinsiplər əsasında həm öz həyatını, həm öz fəaliyyətini qurur, o cəmiyyət inkişaf etmiş, uğurlu cəmiyyətdir" deyir Mehriban xanım Əliyeva. Onun simasında Azərbaycan qadını, humanist dəyərləri mənəvi kamilliyin əsas meyarı kimi önə çıxarır, ədalətli cəmiyyətin bərqərar edilməsinin zəruri şərtlərini müəyyən edir. Beləliklə, Azərbaycanın qadın hərəkatında güclü dövlət, ədalətli cəmiyyət və azad qadın anlayışı bir-birinə möhkəm tellərlə bağlanaraq, sosial-mədəni inkişafımıza töhfələr verir.

Mehriban Əliyeva gördüyü işlərlə Azərbaycan qadınının xeyriyyəçi, mərhəmətli, ictimai-siyasi fəaliyyətdə olan bir insan olduğunu dünya ictimaiyyətinə bir daha sübut edir. O, həm gözəl ana, həm gözəl ictimai-siyasi xadim, həm də ləyaqətli bir Azərbaycan Qadınıdır.

**Nəzakət ƏLƏDDİNQIZI**



# YAP-ın Suraxanı, Sabunçu və Pirallahı rayonlarının ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib





***Avqustun 23-də Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində partiyanın Suraxanı, Sabunçu və Pirallahı rayonlarının ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.***

AZƏRTAC xəbər verir ki, müşavirədə çıxış edən Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanın uğurla inkişaf etdiyini, vətəndaşların həyat səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində çox əhəmiyyətli addımların atıldığını bildirib. O, bu ilin əvvəlindən dövlətimizin başçısı tərəfindən mühüm sosial islahatların həyata keçirildiyini və bunun nəticəsində ölkəmizdə əməkhaqlarının, təqaüdlərin və sosial müavinətlərin əhəmiyyətli dərəcədə artırıldığını diqqətə çatdırıb.

Bu il ölkəmizdə bələdiyyə seçkilərinin keçiriləcəyini deyən YAP sədrinin müavini partiyanın bu seçkilərə hazırlığı məsələləri haqqında da fikirlərini bildirib. Yeni Azərbaycan Partiyasının böyük gücə və cəmiyyətimizdə yüksək nüfuza malik olduğunu deyən Əli Əhmədov partiyanın siyasətinin xalqımız tərəfindən dəstəkləndiyini söyləyib.

Qeyd edilib ki, sosial-iqtisadi sahədə, eləcə də digər sahələrdə həyata keçirilən islahatlar Azərbaycan hökumətinin imkanlarının artması nəticəsində reallaşdırılır. Hər bir dövlətin həyata keçirdiyi funksiyalar çərçivəsində iki vəzifə fundamental məna və əhəmiyyət kəsb edir. Onlardan biri təhlükəsizliyin təmin edilməsi, ikinci insanların rifahının yaxşılaşdırılmasıdır. Sevindirici haldır ki, Azərbaycanda ulu öndər Heydər Əliyevin ideyalarına sadiqlik, əmin-amanlıq, təhlükəsizlik təmin olunur. Bu gün Azərbaycan dünyanın ən sabit ölkələrindən biridir. İndiki halda dünyanın bir çox ölkələrində baş verən qanlı toqquşmalar, fəlakətlər, müharibələr fonunda Azərbaycanda mövcud olan sabitlik insanların həyatı üçün böyük sərvətdir. Bu sərvət ulu öndər Heydər Əliyevin siyasətinin Azərbaycana verdiyi ən böyük nemətlərdən biridir. Prezident İlham Əliyev bu strategiyanı uğurla davam etdirir.

YAP sədrinin müavini onu da diqqətə çatdırıb ki, partiyanın üzvləri Azərbaycanın uğurlarını ictimaiyyət arasında geniş təbliğ etmək işini fəal şəkildə davam etdirməlidirlər. Çünki müstəqil Azərbaycanın inkişafını və güclənməsini gözü götürməyən dairələr, o cümlədən radikal müxalifət sosial şəbəkələr vasitəsilə ölkəmizə qarşı qarayaxma kampaniyası aparırlar. Bu dairələrin əsl niyyətləri Azərbaycan cəmiyyətində ifşa olunmalıdır.

Sonra müşavirə iştirakçılarına müvafiq tövsiyə və tapşırıqlar verilib.

# DQİDK sədrinin birinci müavini: "Din xadimləri də sosial şəbəkələrdən aktiv istifadə etməlidirlər"

***22-23 avqust tarixlərində Qəbələdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qəbələ rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə "Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik" mövzusunda ikigünlük seminar-müşavirə keçirilib.***



Dindarlar, dini icma sədrləri, gənclər və ictimaiyyətin digər nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Qəbələ rayon icra hakimiyyəti aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Absalam Hüseynov Azərbaycanda hər zaman bütün dinlərə və fərqli mədəniyyətlərin daşıyıcılarına qayğı ilə yanaşıldığını bildirib.

Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı nümunəvi dövlət-din münasibətləri, milli-mənəvi dəyərlərimizin qorunması, tolerant və multikultural ənənələrin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətindən, o cümlədən, din xadimlərinin sosial şəbəkələrdən aktiv istifadə etməsinin vacibliyindən danışıb.

Bildirib ki, günümüzdə dövlətimizin din siyasəti Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi demokratik dövlət quruculuğu siyasətinə əsaslanır. Ulu Öndərin siyasi varisi, layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə insan hüquq və azadlıqlarına, xüsusilə, vicdan və dini etiqad azadlığının bərqərar olmasına, milli-mənəvi dəyərlərimizin qorunmasına, insanların, xüsusən də, gənclərimizin dəyərlərimizə sadiq yetişməsinə böyük önəm verilir.

Ölkəmizdə hökm sürən multikulturalizm və dinlərarası tolerantlıq mühitinə qarşı əsas təhdidlərdən birinin dini- radikalizm olduğunu qeyd edən komitə rəsmisi bunun yaranma səbəblərindən biri kimi islam dini haqqında məlumatsızlığın, yad dini ideologiyaların yayılması cəhdlərini göstərib. O, dini ekstremizm və dini radikalizmlə mübarizədə və bu kimi mənfi halların yayılmasında sosial şəbəkələrin roluna toxunub. Sosial medianın vətəndaş cəmiyyətinin formalaşması üçün başlıca faktorlardan biri olduğunu deyib. Sədrin birinci müavini diqqətə çatdırıb ki, din pərdəsi altında gizlənmiş, islamı gözdən salan qüvvələrin çirkin əməlləri üçün sosial media imkanlarından çox effektli şəkildə istifadə edirlər.

S.Salahlı qeyd edib ki, din pərdəsi altında gizlənmiş, islamı təhrif edən, xurafatı, cəhaləti yayan, insanlar arasında ixtilafa səbəb olacaq çağırışlar edən, məzhəb ayrı-seçkiliyi salan, digər dinlərə münasibətlərə ciddi zərbə vuracaq materialları yayan qüvvələrə qarşı din xadimlərimizin, ilahiyyatçılarımızın, dini icmalarımızın üzərinə də böyük məsuliyyət düşür. Onlar islamın, dinimizin gözəlliklərini, insanpərvər dəyərlərini, həmrəyliyə və birliyə çağıran xüsusiyyətlərini insanlarımıza, sadəcə, məsciddən yox, həm də, məhz sosial media vasitəsilə çatdırmaqda aktivlik nümayiş etdirməlidirlər. Sədrin birinci müavini din xadimlərini sosial medianın gücündən və imkanlarından istifadə edərək, respublikamızda sabitliyi pozmaq istəyən, yüksək dini ideyalar uğrunda mübarizə pərdəsi altında fəaliyyət göstərən qrupların əsl simasının ifşa edilməsində prinsipiallıq və aktivlik nümayiş etdirməyə çağırıb.

Dövlət Komitəsinin Dini maarifləndirmə işinin təşkili şöbəsinin əməkdaşı Ramil Baxşəliyev isə, vurğulayıb ki, dini müxtəlif siyasi maraqların təmin olunmasında vasitəyə çevirməyə çalışan dairələr var. Belə dairələrin əsas ortaq cəhəti odur ki, cəmiyyətdə dini birləşdirici faktor olmaqdan çıxararaq, bölücü funksiya daşımasına nail olsunlar. Onun sözlərinə görə, bunun üçün müxtəlif dinlər, hətta eyni dinin qolları arasında qarşıdurma yaradılmasına çalışırlar, eyni zamanda, din milli kimliyin digər elementlərinə qarşı qoyulur. Halbuki milli kimliyi əmələ gətirən bu amillər, nəinki bir-birini inkar edir, əksinə, bir-biri ilə üzvi sürətdə bağlıdır. Beləliklə, dinin milli kimliyə qarşı qoyulması cəmiyyətdə həmrəyliyin zəifllədilməsi, onu birləşdirən dəyərlərin aradan qaldırılması, parçalanma və qarşıdurma yaradılması məqsədi daşıyır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şəki bölgəsi üzrə şöbəsinin müdiri Taleh Abdullayev, DQİDK-nin əməkdaşı Tərxan Paşazadə və başqaları çıxışlarında ölkəmizdə heç vaxt dinlərarası, millətlərarası zəmində hər hansı mübahisələrin, çəkişmələrin, digər xoşagəlməz halların olmadığını diqqətə çatdırıblar. Natiqlər, həmçinin, ölkəmizdə milli-mənəvi və islami dəyərlərin qorunması və təbliği sahəsində görülən işlərdən də bəhs ediblər. DQİDK-nın sifarişi ilə çəkilmiş "Üfüqdəki gələcək" sənədli filminin də nümayiş olunduğu ikigünlük seminar-müşavirə müzakirələrlə başa çatıb.

**NƏZAKƏT**

## Nikol Paşinyan Cermuxda etirazlarla qarşılanıb!



Ermənistanın baş naziri Nikol Paşinyan xarici şirkətlərin mədən sənayesində mənfi nəticələr verən fəaliyyətinə qarşı etiraz edən Cermux sakinləri ilə görüşmək üçün bu rayona səfər edib. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, hökumətin başçısı əhalinin etirazları ilə qarşılaşıb. Kurort şəhəri olan Cermuxun onlarla sakini Paşinyanın gəlişi ilə bağlı etiraz aksiyası keçiriblər. Onlar Amulsar mədəninin istismarını dayandırmağı tələb ediblər. Baş nazir bildirib ki, onların etirazını başa düşür, amma bu məsələni daha təfsilatı ilə araşdırmaq lazımdır. Bundan sonra sakinlər hökumətin fəaliyyətsizliyinə qarşı şüarlar səsləndiriblər. Onlar ərazidən uzaqlaşan Paşinyanı əhatəyə alaraq ondan təcili tədbirlər görülməsini tələb ediblər. Baş nazir isə iddia edib ki, qızıl mədənlərinin bu ərazidə ətraf mühitə mənfi təsiri azdır. Aksiya iştirakçılarından biri deyib ki, Nikol Paşinyan artıq xalqın səsini eşitmir. "Əgər o, özünə gəlməsə Serj Sarkisyanın taleyini yaşayacaq, bəlkə də ondan da pis vəziyyətə düşəcək", -deyə Cermux sakini Qrayr Kostanyan bildirib.

# “Mehriban Əliyeva müstəqil dövlətimizin inkişafına böyük töhfələr verən ictimai-siyasi xadimdir”



*Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın yap.org.az-a müsahibəsi*

***- Hicran xanım, Azərbaycan qadını öz idarəsi və mərdliyi, saflığı və sədaqəti ilə cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşdırılmasında müstəsna rol oynayır. Bu gün qadınların ölkəmizin ictimai-siyasi həyatında yeri və roluna sizin nəzər-nöqteyinizdən diqqət yetirmək istərdik...***

- Bəli, həqiqətən tariximizin bütün mərhələlərində Azərbaycan qadının adı böyük şərəflə keçir. O, qayğıkeş ana, fitri istedada malik şair, möhkəm iradəli hökmdar, dərin zəkalı mütəfəkkir olaraq öz adını tariximizin ayrı-ayrı səhifələrinə yazdıra bilmişdir. Hətta bəzən xarici ölkələrdən gələn tədqiqatçılar, alimlər, suyasətçilər qeyd edirlər ki, “biz Azərbaycana gələnədək elə bilirdik ki, qadınlarınız hüququnu bilməyən, zəif və passivdirlər, lakin səfər zamanı tam əksini görürük, bunun səbəbi nədir?” Əlbəttə ki, biz cavab veririrk ki, bu bizim məxsus olduğumuz mədəniyyətdir, dəyərdir, etik kodeksidir.

Elə buna görə də, cəmiyyətin inkişafının bütün dövrlərində qadınlar kişilərlə bərabər dövlət quruculuğunda, siyasi qərarların verilməsində fəal iştirak etmişlər. Ölkəmizdə milli qadın siyasəti tariximizin şanlı səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət statusu almışdır. Həmin dövrdə (1918-cu ildə) ilk dəfə olaraq müsəlman Şərqində qadına seçmək və seçilmək hüququnun verilməsi tarixi nailiyyət hesab olunurdu. Bununla da nəinki Şərqdə, hətta demokratiyanın beşiyi sayılan bir sıra Avropa ölkələrindən və ABŞ-dan əvvəl qadına cəmiyyət həyatında siyasi proseslərə qoşulmaq hüququ verilmişdir. Bütün müsəlman dünyasında qızlar üçün ilk dünyəvi məktəb (1901-ci ildə) 118 il bundan qabaq Bakıda yaradılmışdır. Azərbaycan qadını öz fəaliyyətini maarifçilik və xeyriyyəçilik ideyalarının yayılmasından başlayaraq, mədəni, dini, milli- mənəvi dəyər və ənənələri də nəzərə almaqla davam etdirir. Onların arasında görkəmli dövlət, elm, mədəniyyət və ictimai-siyasi xadimləri vardır. Qadınların cəmiyyətdəki yeri və rolunun mühüm göstəricisi onların müxtəlif dövlət vəzifələrini tutmaları və ümumiyyətlə, aktiv əmək fəaliyyəti ilə məşğul olmalarıdır.

Bu qadınlar bütün tarixi dövrlərdə fəal iştirak edərək, cəmiyyətimizin inkişaf etməsinə öz töhfələrini vermişlər. Tarixin istənilən anında bizim örnək kimi qəbul etdiyimiz qadınlar olub və indi də vardır. Onlardan bir neçəsinin adlarını qeyd etmək olar. Məsələn, İlk qadın pedaqoq Mədinə Qiyasbəyli, ilk dramaturq Səkinə Axundzadə. Ağabacı Rzayeva həm Azərbaycanda, həm də bütün Şərqdə peşəkar musiqi təhsilini almış ilk qadın-bəstəkardır. Onun ardınca digər istedadlı xanımlar Ədilə Hüseynzadə, Hökümə Nəcəfova, Şəfiqə Axundova bəstəkarlıq sahəsinə gəliblər. Şərqdə ilk opera yazan bəstəkar qadın Şəfiqə Axundova, ilk xanım opera müğənnisi Şövkət Məmmədova, balet sahəsində ilk qaranquş olan Qəmər Almaszadə, ilk peşəkar rəssam Maral Rəhmanzadə, ilk qadın heykəltəraşı Zivər Məmmədova, ilk həkim-ginekoloq Ədilə Şaxtaxtinskaya. İlk kinoaktrisa, ilk xanım neft mühəndisi və ilk xanım kimyaçı akademik - İzzət Orucova. İlk qadın akademik - Validə Tutayuq biologiya sahəsində ilk qadın elmlər doktoru, professordur. 1968-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilərək böyük ilkə imza atıb. Məhz akademiyanın həqiqi üzvü seçildikdən sonra, nəhayət, Azərbaycan elminin də qadın akademiki olub. Azərbaycanın ilk qadın akademiki seçilən bu xanım sonradan bir çox ilklərə imza atıb. Ən əsası isə ondan sonra qadın elmi kadrlar irəli çəkilib. İlk qadın nazirimiz xarici işlər naziri Tahirə Tahirova olub. O, həm də neft sənayesi üzrə ali təhsil alan ilk azərbaycanlı qadın-mütəxəssis idi. Azərbaycanda ilk dəfə qadınlar arasında riyaziyyat üzrə elmlər doktoru adını almaq Tamilla Nəsirovaya nəsib olub. İlk uşaq pediatrı Adilə Namazova beynəlxalq aləmdə tanınan pediatr-kardioloqlardan biridir. İlk qadın oftalmoloq Zərifə Əliyeva Azərbaycanda oftalmologiya sahəsində həm də ilk akademik olmuşdur. Onun səyi və təşəbbüsü ilə ölkədə ilk dəfə peşəkar göz patologiyası laboratoriyaları yaradılmışdı. Həmin sırada elmimizin fəxri, tanınmış şərqşünas, professor Aida xanım İmanquliyevanın adını xüsusi qeyd etmək lazımdır. İstedadlı ərəbşünas alim bütün ömrünü elmi yaradıcılığa həsr edərək şərqşünaslığın inkişafına öz layiqli töhfələrini vermişdir.

Müasir Azərbaycan qadını ana olmaqla yanaşı, həm də bacarıqlı siyasətçi, iş adamı, dövlət məmuru, xalqın inanıb səs verdiyi deputatdır. Bu fəallıq, malik olduğumuz tarixi ənənələrlə yanaşı, ölkəmizdə həyata keçirilən gender siyasətinin mahiyyətindən, onlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılmasından irəli gəlir. Azərbaycan qadını hər zaman olduğu kimi, bu gün də dövlətin dəstəyini hiss edərək, özünün fəallığı ilə cəmiyyətdə bərabərhüquqlu mövqeyə nail olmağı bacarır.

***- Reallıqlara əsaslanaraq, bu fikri böyük inamla qeyd edirik ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın fəaliyyəti Azərbaycan qadınları üçün bir örnəkdir...***

- Tarixin istənilən anında bizim örnək kimi qəbul etdiyimiz qadınlar olub və indi də vardır. Bu baxımdan müasir dövrdə ölkəmizin Birinci Xanımı, Respublikanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva özünün həm ictimai- siyasi fəaliyyəti, həm də elmi yaradıcılığı ilə Azərbaycan qadınlarına nümunədir. O, müasir Azərbaycan qadın hərəkatının lideri kimi dövlətimizin tərəqqisi naminə geniş fəaliyyət göstərir. Mehriban xanımı şəxsiyyət kimi, xarakterizə edərkən bir məqamı nəzərdən qaçırmaq olmaz ki, onun fəaliyyətində ənənəviliklə müasirlik, tarixi köklərə bağlılıqla dünyəvilik əsas prinsiplərdəndir.

Mehriban xanımın ictimai-siyasi fəaliyyəti o qədər zəngin və parlaqdır ki, onu bütün incəlikləriylə qədər təsvir etmək, sadalamaq, xatırlamaq qeyri mümkündür. Bu mənada Mehriban xanımın gənc və müstəqil dövlətimizin möhkəmlənməsi yolunda apardığı ideoloji mübarizəsinə, ümumən gördüyü işlərin miqyasına nəzər yetirəndə bu xidmətin həcmini təsəvvür etmək, ölkənin və xalqın həyatında yeniliklərlə müşayiət olunan inkişafını görmək, duymaq elə də çətin deyil. Mən xüsusilə Mehriban xanımın Birinci xanım institutunun yaranmasındakı rolunu qeyd etmək istərdim. Postsovet məkanında ictimai həyatda fəal iştirak edən çox az ölkə başçısının xanımının adı çəkmək olar. Lakin, Mehriban xanımın fəaliyyəti, digər Birinci xanımları da aktiv olmağa sövq etdi. Mehrinan xanım müsahibələrinin birində birinci xanım olmağın məsuliyyəti haqqında dediyi fikri xatırlatmaq istərdim: “Hər şey bu və ya digər insanın öz vəzifələrinə nə dərəcədə ciddi yanaşmasından asılıdır. Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və ya öz ailəni yox, öz ölkəni təmsil edirsən. Bu barədə özünə hesabat verməli, sözlərində, qərarlarında, hərəkətlərində daha təmkinli olmalısan. Bu, çox məsuliyyətli yükdür...” Mehriban Əliyevanın humanizm, mərhəmət və nəciblik kimi ali mənəvi keyfiyyətlərindən irəli gələn əzmkar və çoxşaxəli fəaliyyətinin təməlində məhz millətə layiqli xidmət dayanır. Və əlbəttə ki, heç təsadüfi deyil ki, cənab Prezident onun ictimai-sosial həyatda aktiv fəaliyyətini, uğurlu layihələrini nəzərə alaraq, Respublikanın Birinci Vitse-prezidenti təyin etdi.

***- Mehriban xanım Əliyevanın müsahibələrinin birində söylədiyi bu fikirlərə istinad etmək istərdik: “Həyatda hər kəsin yerini və taleyini tarix müəyyən edir”. Bu fikri tarixdə rolu olan şəxsiyyətlərin timsalında necə şərh edərdiniz?***

- O, tarixdə yaşamış vətənpərvər, maarifpərvər qadınlarımızın örnək olan həyatını öz fəaliyyətində yeni keyfiyyətdə, həm də ləyaqətlə davam etdirir. O, ictimai düşüncədə “bir çox sosial problemləri yalnız dövlət həll etməlidir” kimi stereotipi dəyişdirməyə cəhd etdi və cəmiyyətin bütün təbəqələrinin kənar müşahidəçi mövqeyindən konkret fəaliyyətə keçməsinə nail oldu. Bu, çox önəmli məsələdir. Mehriban xanım insanlarda sosial məsuliyyət hissinin yaranmasına və ictimai işlərdə fəal olmağa sövq etdi. Və bu gün xeyli sahibkarlıq strukturları, təşkilatlar xeyriyyə işləri görür, bunu bir borc kimi qəbul edirlər. Nə üçün xalq ölkənin başçısını və Birinci vitse-prezidenti bu qədər sevir? Çünki, vətəndaşlar cənab Prezidentin və Mehriban xanımın timsalında onların istəkləri ilə maraqlanan, protokol çərçivəsindən kənara çıxmağı, hər bir ciddi probleme münasibət bildirməyi bacaran insanları görürlər. Onlar daim əhalinin yanındadır, ünsiyyətdən çəkinmirlər, əksinə insanların görüşünə can atırlar. Bu onu göstərir ki, xeyirxahlıq və şəfqət insanın daxilindən gəlməlidir, yoxsa ictimaiyyət onu qəbul etməyəcək. Mehriban Əliyevanın humanizm, mərhəmət və nəciblik kimi ali mənəvi keyfiyyətlərdən irəli gələn əzmkar və geniş miqyaslı fəaliyyətinin təməlində məhz millətə layiqli xidmət məramı dayanır. Həm vətəndaş, həm ictimai xadim kimi Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayır, ölkənin inkişafına öz layiqli töhfələrini verir. “Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam. Mən də buna nail olmağa çalışacağam” - Mehriban xanımın həyat fəlsəfəsinin əsasını bu fikirlər təşkil edir. Onun bütün təşəbbüslərinin, gerçəkləşdirdiyi layihələrin mərkəzində - İnsan dayanır.

***- Hicran xanım, hər bir insanın formalaşmasında ailənin rolu inkaredilməzdir. Mehriban xanım Əliyeva şəxsiyyətində beynəlxalq ictimaiyyətin rəğbətini qazanan ideal qadın obrazını şərtləndirən amillər hansılardır?***

- Əlbəttə, hər şəxsin formalaşmasında ailənin, ailə mühitinin, ailə tərbiyəsinin rolu əvəzsizdir. Ailəyə bağlılıq, ailə dəyərləri, uşaqlara qayğı, böyüklərə hörmət Azərbaycan xalqına məxsus olan ən gözəl xüsusiyyətlərdən biridir. Mehriban xanımım səmimiyyəti, fədakarlığı, xalqa sevgisi öz soykökündən qaynaqlanır. O, mənsub olduğu ailənin zəngin mənəviyyatından bəhrələnərək istər şəxsi həyatında, istərsə də ictimai fəaliyyətində onların nəcib əməllərini yaşadır, bu genetik kodu ləyaqətlə davam etdirir. Mehriban Əliyeva ziyalı ailəsində doğulub. Valideynləri Azərbaycan elmində ağır çəkiyə malik insanlardır. Babaları da ədəbiyyatımızda, söz sənətimizdə izi olan, sözü, səsi eşidilən, qəbul edilən, yüksək vətəndaşlıq nümunəsi ilə seçilən ziyalılar olub.

O həm də Azərbaycan tarixində əbədi qalacaq müdrik bir dövlət başçısının, ölkə birincisinin ailəsinə gəlin köçüb. Bu da qismətin işidir. Və tale onu həm də Azərbaycanın birinci xanımı edib. Prezidentin ömür-gün yoldaşı, xanımı olmaq da alın yazısıdır. Amma xalqın sevimli övladı olmaq, millətin sevgisini qazanmaq taleyin, qismətin işi deyil - bu MƏHƏBBƏTİ qazanmaq lazımdır. Tək-tək adama nəsib olan bu sevgini o öz əməlləri, ağlı, iradəsi, qabiliyyət və bacarığı ilə qazanıb...

Gözəllik, Xeyrxahlıq, Sədaqət və Analıq kimi ülvükeyfiyyətləri təcəssüm etdirənMehriban xanımı sözün əsl mənasında böyük hərflə yazılan Azərbaycan Qadınının adlandıra bilərik. Mehriban xanım parlaq ictimai xadim olmaqla bərabər, fədakar həyat yoldaşı, qayğıkeş ana, şəfqətli nənə kimi şərəfli missiyanı ləyaqətlə yerinə yetirir. Ö övladlarını Azərbaycanı ürəkdən sevən, milli-mənəvi dəyərlərbağlı əsl vətəndaş kimi tərbiyə etmişdir. Ailə qayğıları, ictimai və siyasi fəaliyyəti bir arada və yüksək səviyyədə yerinə yetirmək böyük peşəkarlıq və səbr tələb edir. Bununla bağlı Mehriban xanım qeyd edir ki, “Mən vəzifələrimi vaxtında yerinə yetirmək üçün düzgün iş forması, düzgün tarazlıq tapmağa çalışıram. Əlbəttə, mən ilk növbədə həyat yoldaşımın xanımıyam, uşaqlarımın anasıyam, beş nəvəm var və həyatımın bu hissəsinə ayırdığım diqqətin ikinci plana keçməsini əsla istəmirəm. Əsla. İndiyə qədər bunu bacarmışam. Ümidvaram ki, gələcəkdə də bunu bacaracağam. Mən bişirib-düşürməyi çox xoşlayıram. Bu işlə məşğul olanda yaxşıca dincələ bilirəm. Axı dadlı yeməklər hazırlamaq da müəyyən mənada yaradıcı işdir. Mən bu işi sevirəm, bu işi görürəm və bacarıram”.

Ardı Səh. 8

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

24 avqust 2019-cu il

# "Mehriban Əliyeva müstəqil dövlətimizin inkişafına böyük töhfələr verən ictimai-siyasi xadimdir"

Əvvəli-Səh-7



Mən istərdim Mehriban xanımın qadının ailədəki rolu və ailəyə münasibətini ilə bağlı dedikləri bəzi fikirləri misal göstərim . "Hər bir qadın üçün onun ailəsi, onun uşaqları həyatının ən vacib, ən mühüm hissəsidir. Mən özüm üç uşaq anası olaraq analıq missiyasını həyatımın ən vacib missiyası kimi dəyərləndirirəm". Mehriban xanım, eyni zamanda, qadını ailədə sülhün, razılığın və məhəbbətin təminatçısı hesab edir: "Mənim üçün çox vacibdir ki, həyat yoldaşım olduqca dolğun və gərgin iş günündən sonra evə gəlir və burada onu anlayır və dəstəkləyirlər, onu qiymətləndirir və sevirlər". Bu ifadələr çox sadədir, eyni zamanda böyük və dərin məna kəsb edir. Məhz bu yanaşmanın nəticəsidir ki, biz onun həyata keçirdiyi layihələrdə maarifçi, xeyriyyəçi, kreativ ideyaları ilə yanaşı, mədəni, dini, milli- mənəvi dəyər və ənənələrə sədaqət müşahidə olunur. Bütün bunları harmonik şəkildə reallaşdırmaq, ictimaiyyətə, eləcə də dünyaya çatdırmaq çox çətindir, lakin Mehriban xanım yorulmaz əməyi, güclü iradəsi ilə bu şərəfli və xeyirxah missiyanı layiqincə yerinə yetirir. Bir sözlə desək, Azərbaycan qadınının bütün gözəl keyfiyyətlərini özünün təkrarsız şəxsiyyətində birləşdirən Mehriban Əliyevanın cəmiyyətdə yaratdığı aura insanları mənəvi saflığa, nəcibliyə, xeyirxahlığa səsləyir. Bir məsələni də qeyd etmək istərdim ki, bu gün bizim bir çox xanımlarımız, gənc qızlarımız onun fəaliyyətindən ruhlanaraq ictimai həyatda aktiv iştirak etməyə başlayıblar.

***- Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən biri təbii ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyevin irsinin təbliğidir. Rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xidmətlərini necə şərh edərdiniz?***

- Mehriban xanım Heydər Əliyev Fondunu yaratmaqla, Ulu Öndər Heydər Əliyevin vətənimiz və xalqımızın inkişafı naminə gördüyü işləri, işıqlı ideyalarını yüksək səviyyədə davam etdirir. Fondun qarşıya qoyduğu məqsəd demək olar ki, həyatımızın mühüm sahələrinin inkişafına yönəlmiş layihələr, milli-mənəvi dəyərləri özündə ehtiva edən prinsiplər üzərində qurulmuşdu. Bu məqsəd Fondun fəaliyyət proqramında daha dəqiq ifadə olunduğu kimi, "milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək etmək, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirləri, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələri dəstəkləmək, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılmasına yardım göstərməkdən ibarətdir". Qeyd etmək istərdim ki, Fondun fəaliyyəti çox unikaldır. Mehriban xanımın rəhbərliyi ilə bu çox kiçik, lakin bacarıqlı, yaradıcı insanlardan ibarət kollektivlə bəzən bir neçə dövlət qurumların işini yerinə yetirir. Heydər Əliyev Fondu nəinki irimiqyaslı, möhtəşəm layihələri həyata keçirib, hətta fəaliyyət göstərdiyi bu 15 ildə ölkənin həm daxildə, həm də xaricdə vüsətli inkişafına, böyük nüfuz qazanmasına, yeni dünya cəmiyyətinin öndə olan ölkələrindən birinə çevrilməsinə öz fəaliyyətilə güclü dəstək olmuşdur. Bu, ən çox insan faktoruna ali münasibəti, ölkəmizin beynəlxalq arenada layiq olduğu mərtəbədə qərarlaşması ilə dəyərli olmuşdur. Elə, ölkə başçısı, cənab Prezident İlham Əliyev, Fondun fəaliyyətini yüksək qiymətləndirərək qeyd etmişdir ki, "Mehriban Əliyevanın rəhbərliyi ilə Fond nəinki Azərbaycanda, eyni zamanda, regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilmişdir".

Heydər Əliyev Fondu məhz milli-bəşəri ideyaların tərənnümçüsü, daşıyıcısı olması ilə qüdrətlidir. Mehriban Əliyevanın Fondun rəhbəri kimi, ən böyük məqsədi də Heydər Əliyev irsinin bir məktəb kimi yeni nəslə öyrədilməsi, təbliğ olunmasıdır. Mehriban Əliyeva onun ideallarına sadiq qalaraq, milli-mənəvi dəyərlərimizi özünün həyat tərzində, əxlaqında və düşüncəsində yaşadaraq ulu öndərin yolunu ləyaqətlə davam etdirir. Bu, xalqın gələcəyini möhkəm özüllər üstə qurmağa, onu inkişaf etdirməyə aparan ən işıqlı yoldur. Bu, Ulu Öndərin apardığı yaradıcılıq və quruculuq işlərinin davamı olaraq vətən və xalq naminə fəaliyyət göstərməyin ən doğru yoludur. Mehriban Əliyevanın genişmiqyaslı fəaliyyəti ölkənin ictimai-sosial, mədəni həyatını əhatə etməklə bitmir. O, Azərbaycanın milli-mənəvi dəyərlərini, mədəniyyətini, ölkəmizin özünəməxsusluğunu, özəlliklərini, dünya cəmiyyətində böyük fədakarlıqla, uğurla təbliğ edir. Qədim ənənələrimizlə bağlı olan multikultural dəyərləri, tolerantlığı başqa ölkələrdə əməli işləri ilə nümayiş etdirir. Bir daha xatırladaq ki, bütün bunlar güclü, aydın təfəkkürə, təxəyyülə malik olan incə ruhlu, zərif təbiətli bir qadının - ölkənin Birinci xanımı, Birinci vitse-prezident Mehriban Əliyevanın bilavasitə çalışmaları sayəsində həyata keçirilir.

***- Təbii ki, dünyaya çıxış öncə ölkə daxilində görülən işlərdən, əldə olunan uğurlardan başlanır. Azərbaycanın beynəlxalq əhəmiyyətli tədbirlər üçün ideal məkan seçilməsində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidmətləri inkaredilməzdir...***

- Bilirsiniz, Müasir dünyanın öz tələbləri var. Qloballaşma şəraitinin tələblərindən biri də, hər bir millət, dövlət özünün varlığını qoruyub saxlamaq və digərlərinə tanıtdırmaq üçün müxtəlif mədəni - kütləvi, ictimai, sosial layihələr keçirirlər. Azərbaycanın müharibə vəziyyətdə olmasına baxmayaraq, öz tarixini, mədəniyyətini, adət və ənənələrini dünya ictimaiyyətinə çatdırır. Əlbəttə, bu proses səbr və iradə tələb edir. Mehriban xanımın Azərbaycanın şifahi xalq ədəbiyyatının, milli - mədəni və musiqi irsinin qorunub saxlanılması, inkişaf etdirilməsi və dünyada təbliği, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsi üçün gördüyü işlərin, yorulmadan, ancaq davamlı aparılan səylərin bu biz müsbət nəticələrini görürük. Onun səyləri nəticəsində Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələri YUNESCO-nun müvafiq siyahılarında yer almışdır. Muğam sənətinin, aşıq sənətinin, Novruz bayramının, İçərişəhərin, tar ifaçılığı sənətinin YUNESKO-nun nadir, şah əsərləri siyahısına daxil edilməsi Azərbaycanla bu təşkilat arasında əməkdaşlığın davamlılığına xidmət edən töhfələrdir.

O, İSESCO və UNESCO-nun xoşməramlı səfiri kim, müstəqil Azərbaycanın nailiyyətlərini, ölkəmizdə hökm sürən tolerantlığı təbliğ edir, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun bərəqərar olması üçün bütün səylərini göstərir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihələr səhiyyə, mədəniyyət, sosial sahə, ekologiya sahələrindən əlavə, idmanı da geniş əhatə edir. İlk Avropa Oyunlarının yüksək, güclü və peşəkar səviyyədə təşkil olunması və həyata keçirilməsində Təşkilat Komitəsinin rəhbəri kimi, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın böyük və əvəzolunmaz əməyi vardır. Baxmayaraq ki, Avropa Oyunları ərəfəsində və keçirilən müddətdə bizi istəməyən bəzi qüvvələr ölkəmizin əleyhinə müəyyən təxribatlar törətdilər. Lakin biz bütün xalq ölkə Prezidenti, Birinci xanımı bir milli ideya ətrafında birləşdilər. Əlbəttə, bu xalqımızın onlara yüksək inam və etibarından irəli gəlir.

Ardı Səh. 9

# "Mehriban Əliyeva müstəqil dövlətimizin inkişafına böyük töhfələr verən ictimai-siyasi xadimdir"

Əvvəli-Səh-8

Mehriban xanımın yüksək səriştəsi, məharəti, açılış və bağlanış mərasimindəki çıxışı bütün dünyaya nümayiş olundu. O, öz timsalında Azərbaycan qadını obrazını yaradaraq qadınlarımızın nələrə qadir olduğunu göstərdi. Bütün dünya bir daha şahid oldu ki, I Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri kimi Azərbaycan qadını beynəlxalq səviyyəli tədbirləri təşkil etməyə və keçirməyə qadirdir. IV İslam Həmrəyliyi Oyunlarının uğurla keçirilməsində də bu oyunların Təşkilat Komutəsinin sədri kimi onun zəhməti təqdirəlayiqdir.

Və mən xüsusilə vurğulamaq istərdim ki, bütün bu beynəlxalq tədbirlərdə qadın hüquqlarının müdafiəsi məsələsi daim diqqətdə saxlanılmışdır. Fondun təşkilatçılığı ilə "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq Forumun Bakıda keçirilməsi qadınların cəmiyyətin həyatındakıfeal mövqeyini bir daha təsdiq edir. Bakı Forumunda mədəniyyətlərarası dialoqun idarəçilik, siyasi və praktiki aspektləri müzakirə olundu, təcrübə mübadiləsi aparıldı, eləcə də yeni təşəbbüslər irəli sürüldü. Bu cür beynəlxalq tədbirlərin Bakıda keçirilməsi Azərbaycanın nüfuzunun getdikcə gücləndiyini bir daha sübut edir. Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərin "Gender bərabərliyi: de-yure və de-fakto bərabərliyinin təmin olunması" mövzusunda VII Konfaransında Mehriban Əliyevanın proqram çıxışı cəmiyyətimizdə yüksək əks-sədaya və müzakirələrə səbəb olmuşdur. 2012-ci ildə Bakıda keçirilən beynəlxalq Krans-Montana Forumu çərçivəsində "Qadın hüquqları insan hüquqlarıdır, insan hüquqları isə qadınların hüququdur mövzusunda Konfransda qaldırılan məsələlər, eyni zamanda Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın qadın hüquqlar ilə bağlı geniş və əhatəli çıxışı beynəlxalq diqqətin ölkəmizə yönəldilməsinə imkan yaratmışdır. Bu ilin may ayında IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın iştirakı ilə "Qızlara təhsil verməklə zorakı ekstremizmə qarşı mübarizə" mövzusunda "dəyirmi masa"nın təşkil olunması, onun təşəbbüsü ilə ayrıca sessiyanın keçirilməsi, bu mövzu ətrafında fəal müzakirələrin aparılması və tövsiyələrin qəbul edilməsi dünyada qadınların, əsasən də qızların hüquqlarının müdafiəsi istiqamətində xüsusi əhəmiyyət kəsb edir. Mehriban xanımın əsas məqsədi ötən hər günü tarixinə uğur səhifəsi kimi yazan Azərbaycanın beynəlxalq aləmdə yerini və rolunu möhkəmləndirmək, həqiqətlərimizi dünya ictimaiyyətinə olduğu kimi çatdırmaqdır.

Mehriban Əliyeva bu illərdə çox titullara, təltiflərə, mükafatlara layiq görülüb. Elə bu günlərdə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanı "Dostluq" ordeni ilə təltif edib. Onun beynəlxalq aləmdəki nüfuzu, aldığı mükafatlar təbii ki, ölkəmizin, xalqımızın adına başucalığı gətirir. Amma onların içərisində bir mükafatın yeri əlahiddə olduğundan burda onu xatırlatmağı vacib sayırıq. Bu, Azərbaycanda keçirilmiş I Avropa Oyunlarının uğurla, böyük qələbə ilə başa çatmasında əsl fədakarlıq nümayiş etdirən "Bakı-2015" I Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın 29 iyun 2015-ci il tarixində "Heydər Əliyev" ordeni ilə təltif olunması idi. Zənnimizcə, bu mükafat ona daha çox sevinc hissi yaşatdı, onu çox duyğulandırdı. Mükafatın təqdimolunma mərasimindəki çıxışı isə iki il yarımda çəkdiyi əziyyətləri, keçirdiyi narahatlığı, duyduğu məsuliyyətdən doğan fərəh hissini bütünlükdə ifadə edirdi. Eyni zamanda bir öhdəlik və vətəndaşalra çağırış idi. Mehriban xanım çıxışından bu fikirləri bir daha yada salma istərdim. O cənab Prezidentə minnətdarlıq edərək bildirdi ki, "Sizin ölkəmizə, xalqımıza olan inamınız heç bir şübhə qoymurdu ki, hər şey əla olacaq və biz yenə də qələbə çalacağıq. Siz bir daha bütün dünyaya sübut etdiniz ki, heç bir qara qüvvə bizi hədəf seçib qorxuda bilməz və ədalət, xoş niyyət, xalqla birlik hər zaman zəfər çalacaq.Bu 17 gün ərzində yaşadığımız xoş anlar üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Mən idman leksikasından istifadə etsəm deyə bilərəm ki, bu 17 gün ərzində Azərbaycan xalqı bir komanda idi və Siz bu komandanın şərəfli kapitanı idiniz. Belə olan halda, əlbəttə, qalib gəlməmək mümkün deyildi. Vətənimizə, doğma Azərbaycanımıza xidmət etmək ən böyük şərəfdir və xidmətimizin nəticələrini görüb yaşamaq ən böyük xoşbəxtlikdir. Cənab Prezident, biz hər birimiz ölkəmizin əsgəriyik və Azərbaycanın gələcəyi naminə daha da tam gücümüzlə xidmət etməyə hazırıq". Bəli, xalqımız, hər bir vətəndaşımız möhtərəm Prezidentimizin əsgəriyik və onun ətrafında sıx birləşmişik. Və bu birlik ölkəmizin inkişafının mühüm təmə daşıdır.

***- Hicran xanım, Mehriban xanım Əliyevanın fəaliyyətinin əsas prinsipləri xeyirxahlıq və humanistlikdir. Bu prinsiplərdən irəli gələn addımlarına bir baxış keçirməyinizi istərdik...***

- Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin hər addımın əsasında xeyirxahlığın, humanizmin, səmimiyyətin, vətəndaşlıq təəssübkeşliyinin yüksək səviyyədə qorunduğunun şahidi oluruq. Onun "Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir" fikri qazandığı uğurların, gördüyü işlərin bələdçisidir. Mehriban xanım Azərbaycanın Birinci vitse-prezidenti kimi təqdimatında bu prinsipləri də diqqətə çatdırmışdır: "Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar."

Bilirsiniz ki, xeyriyyəçilik bizim maarifpərvər, vətənsevər ziyalılarımızın əsas fəaliyyət prinsiplərindəndir. Müasir dövrdə isə xeyriyyəçilik haqqında ən qiymətli məqamları elə Mehriban xanımın öz fikirlərindən öyrənmək mümkündür: "Xeyriyyəçiliyin ictimai əhəmiyyətindən danışarkən vurğulamalıyıq ki, o, cəmiyyətdə mənəvi-psixoloji ab-havanın yaxşılaşmasına şərait yaradır, insanlar arasında münasibətləri humanistləşdirir, onların daha xeyirxah, səmimi və həssas olmasına müsbət təsir göstərir. Axı, çətin məqamda başqalarından dəstək almış insan özü də, imkan daxilində başqalarına kömək göstərməyə daha çox meyil edəcəkdir. Beləliklə, cəmiyyətimizdə "xeyirxah işlər dairəsi", qarşılıqlı kömək və dəstək sistemi yaranır ki, bu da son nəticədə insanların qarşılıqlı münasibətlərinə, onların ovqatına və sosial əhval-ruhiyyəsinə müsbət təsir göstərir. "

Mehriban xanımın simasında vətəndaşlarımız köməyə ehtiyacı olanlara yardım əlini uzatmağa hazır etibarlı dayaq, doğma insan görürlər. Minlərlə insana, xüsusi ilə uşaq və qadınlara sağlamlığını və ümidini qaytarır. Azərbaycan ailəsinin problemlərini həmişə diqqət mərkəzində saxlayır, ölkədə ailə, qadın və uşaq problemlərinin həllinə böyük dəstək verir. Valideyn qayğısından və himayəsindən məhrum olmuş, eləcə də, sağlamlıq imkanları məhdud uşaqlarla bağlı hər bir problemə həssaslıqla yanaşır, onları qayğı ilə əhatə edir. Onun şəxsi dəstəyi və köməyi nəticəsində reallaşan genişmiqyaslı tədbirlər ana və uşaq ölümünün qarşısının alınması, hemofiliya, talassemiya və şəkərli diabet xəstəliklərinin azalması istiqamətində profilaktik və müalicəvi işlərin aparılmasına müsbət təsir göstərir. Son illər ərzində yüzdən çox köçkün şəhərciyi tikilib,şəhid ailələri, müharibə veteranları, müharibə əlilləri üçün mənzillər təqdim edilmişdir. Cəmiyyətimizin həssas təbəqələrindən olan qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların daha əlverişli şəraitdə yaşaması üçün gördüyü işlərin nəticələri onlarda gələcəyə inam yaradır.

Avqust ayının 26-sı Birinci vitse-prezident Mehriban Əliyevanın doğum günüdür. Alicənablıq, insanpərvərlik, kübarlıq kimi ali insani dəyərlər, kreativ, yüksək erudisiya sahibi olan, müdrik, cəsarətli, güclü, eyni zamanda, zərif mərhəmətli, şəfqətli Mehriban xanımı təbrik edir, Azərbaycançılıq məfkurəsinin inkişaf etdirilməsində hər zaman yeni yollar axtarışında olan Mehriban Əliyevaya can sağlığı, ailə səadəti arzulayırıq.

# "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında hərbi hissənin yaradılmasının 27-ci ildönümü qeyd olunub





Mühüm strateji əhəmiyyət kəsb edən Naxçıvanda 27 il bundan öncə sərhədlərimizin mühafizəsini həyata keçirən Naxçıvan Sərhəd Dəstəsində Azərbaycanın üçrəngli bayrağı dalğalandırılıb. Hərbi hissəmizin keçmiş sovet sərhədçilərindən təhvil alınması və hərbi hissənin yaradılması xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, bu faktlar "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında hərbi hissənin yaradılmasının 27-ci ildönümünə həsr olunmuş tədbirdə səsləndirilib. Mərasimə hazırlıq barədə raport verildikdən sonra hərbi hissənin döyüş bayrağı sıra meydanına gətirilib. Mərasim ümummilli liderimiz Heydər Əliyevin və Azərbaycan torpaqlarının azadlığı uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-mayor Niyaməddin Tağıyev hərbi hissənin şəxsi heyətini təbrik edərək bildirib ki, Ulu Öndər 1992-ci il sentyabrın 29-da hərbi hissədə ilk andiçmə mərasimi keçirilərkən Azərbaycan Respublikasında Sərhəd Qoşunlarının yaradılmasının məhz Naxçıvandan başlandığını bəyan edib.

Diviziya komandiri qeyd edib ki, ötən dövr ərzində hərbi hissənin ərazisində geniş quruculuq işləri aparılıb, müasir infrastruktur yaradılıb, maddi-texniki bazanın yaxşılaşdırılması sahəsində əhəmiyyətli dəyişikliyə nail olunub, hərbi hissə ən müasir silahlar, hərbi texnika və radiorabitə sistemi ilə təchiz edilib.

Daha sonra xidmətdə fərqlənən hərbi qulluqçulara vaxtından əvvəl hərbi rütbələr verilib, bir qrup hərbçi fəxri fərman, təşəkkür, pul mükafatı və qiymətli hədiyyələr ilə mükafatlandırılıb. Mərasim şəxsi heyətin təntənəli keçidi ilə sona çatıb.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

24 avqust 2019-cu il

***Rusiyanın dövlət başçısının Fransaya səfərində qlobal miqyasda aktual olan məsələlərlə yanaşı, ikitərəfli münasibətlərlə də bağlı müzakirələr aparılıb. Yayılan informasiyalara görə, Rusiya və Fransa prezidentləri müzakirələrdə ciddi razılıqlar əldə edə bilməyiblər. Ancaq müzakirələr çox sayda məsələni əhatə edib. Bundan başqa, E.Makronun "Yeddilər" qrupu ilə bağlı V.Putinə dolayısı ilə etdiyi təkliflər lazımi səviyyədə qarşılıq görməyib. Yaxın Şərqdəki münaqişələrin həllində Moskva və Parisin mövqeyindəki fərqlər qalmaqdadır. Bütün bu məsələlərin fonunda Rusiya-Fransa münasibətlərinin geosiyasi kontekstdə analizi üzərində dayanmağa ehtiyac vardır.***



# Putin-Makron: Rusiya ilə Aİ münasibətlərinin ziddiyyətləri azalmır

### Tarixi məkanda görüş: ənənə davam edəcəkmi?

Rusiya Prezidenti V.Putinin Fransaya səfəri G7 ölkələrinin sammitindən bir həftə öncəyə təsadüf etdi. Ekspertlər bu iki hadisə arasında əlaqədən yazırlar. Daha çox Fransa Prezidenti E.Makronun G7 üzvlərinə Avropa-Rusiya münasibətləri ilə bağlı müəyyən informasiyalar çatdırmaq və eyni zamanda, siyasi dividend əldə etmək niyyəti haqqında bəhs edilir. Bunun üçün kifayət qədər əsaslar vardır. Çünki hazırda Qərb-Rusiya münasibətləri çox gərgin mərhələdədir və yumşalma əlaməti gözə dəymir.

Lakin ekspertlər prezidentlərin tam fərqli xarakterdə olmasının ciddi irəliləyişə inamı azaltdığını da vurğulayırlar. Bununla yanaşı, tarixi təcrübə göstərir ki, müəyyən kritik dönəmlərdə Parislə Moskva ortaq dil tapa bilirlər. Məsələn, 1966-cı ildə Şarl dö Qoll Moskvaya səfər edərək əhəmiyyətli razılıqlara nail olmuşdu. Tarix təkrarlanacaqmı?

Hər bir halda V.Putin Fransada çox sayda məsələni müzakirə etdi. Burada ikitərəfli münasibətlərlə yanaşı, ABŞ, Avropa və dünyanı narahat edən məsələlərlə (məsələn, İran problemi ilə) də bağlı fikir mübadiləsi aparıldı. Prezidentlərin Breqanson qalasında keçirilən və üç saatdan çox davam edən görüşünün geosiyasi konteksti kifayət qədər aktual məsələlərlə əlaqəlidir.

Mətbuata verdikləri bəyanatlarda müzakirələrin nəticələri ifadə olunub. Belə aydın olur ki, tərəflər bir sıra məsələlər üzrə razılığa gələ bilməyiblər, lakin müzakirələr faydalı olub. Rusiya Prezidenti Moskvada müxalifətin aksiyaları ilə bağlı qəti fikir bildirib. V.Putin deyib ki, Moskva Parisə bənzəməyəcək. Yəni müxalifətin hərəkətləri qanundan kənara çıxdıqda, dərhal cəzalandırılacaqlar. Belə çıxır ki, V.Putin Moskvadakı hadisələrdə xarici qüvvələrin təsirinin olduğuna inanır və etiraz aksiyalarına sərt reaksiya verməkdə qərarlıdır. Xatırladaq ki, "sarı jiletlilər" məsələsində Paris Rusiya və ABŞ-ı daxili işlərinə qarışmaqda ittiham etmişdi.

G7 ilə bağlı münasibətlərdə də Moskva təmkinli davranır. V.Putin bu məsələ ilə bağlı deyib ki, Rusiya G7-yə can atmır. Həm də ona görə ki, daha böyük beynəlxalq təşkilatlar mövcuddur, məsələn, G20! Ancaq Kreml G7-yə daxil olan ölkələrlə münasibətlərin inkişafına da qiymət verir. V.Putin bu münasibətlə Rusiyanın Qərblə deyil, ona alternativ ola biləcək geosiyasi dairələrlə bir düşərgədə olduğunu dolayısı ilə ifadə edib. Bu isə maraqlı və əhəmiyyətli seçimdir. Çünki dünya səviyyəsində getdikcə daha çox sayda dövlətlər yeni geosiyasi güc mərkəzinin formalaşdırılması ehtiyacından bəhs edirlər. Rusiyanın bu düşərgənin liderlərindən biri olmaq imkanı var.

İki Prezident İran məsələsi üzərində də dayanıblar. Fransa İranın nüvə razılaşmasına əməl etməsi zərurətini bir daha vurğulayıb. Paris hesab edir ki, bununla bağlı Tehranla müzakirələr davam etməlidir. Lakin məsələ burasındadır ki, Tehran əvəzində fayda görməyəcəksə, razılaşmalara əməl etməyəcək. Üstəlik, Tehran artıq uranın zənginləşdirilməsini yeni səviyyəyə qaldırıb. Makron-Putin danışıqları da bu baxımdan yeni heç nə verməyib. Moskva İranın maraqlarını müdafiə etməkdədir.

Maraqlı bir fraqment iqlim məsələsi müzakirə edilərkən meydana çıxıb. Fransa Prezidenti Sibirdəki yanğın hadisəsi və Severodvinsk yaxınlığında qapalı hərbi obyektdə baş verən nüvə partlayışını xatırladaraq iqlimlə bağlı ortaq işləri görməyin vacibliyini vurğulayıb. V.Putin isə cavabında Severodvinskin Sibirdə olmadığını diqqətə çatdırıb. Sibirdəki yanğınlarla bağlı isə dövlətin ciddi tədbirlər gördüyünü ifadə edib. Parisdə imzalanan iqlim sazişi üzrə tərəflərin əməkdaşlığının vacibliyi də vurğulanıb.

### "Böyük Avropa" ideyası və geosiyasi reallıq: ziddiyyətlər qalır

Əlbəttə, V.Putin və E.Makron Yaxın Şərq məsələsini kənara qoya bilməzdilər. Onlar Liviya və Suriyanı da müzakirə ediblər. Liviyada siyasi parçalanma təhlükəsindən və problemin dinc yollarla həlli məsələsindən danışılıb. Orada vətəndaş müharibəsinin qarşısının alınması məsələsi aktuallığını saxlayır. Lakin böyük dövlətlərin heç biri münaqişəni aradan qaldırmaq üçün konkret addım atmır.

Suriyada vəziyyət daha kritikdir. Orada İdlib ətrafında son günlər vəziyyət daha da ağırlaşıb. B.Əsədə bağlı qüvvələr Rusiya və İranın dəstəyi ilə may ayından başladıqları hücumları genişləndirərək Xan-Şeyhun şəhərini ələ keçiriblər. Bu, Dəməşqə Hələbə gedən ana yolu nəzarətə götürməyə imkan verir. Xatırladaq ki, İdliblə bağlı Soçidə Rusiya ilə Türkiyə arasında bir razılaşma imzalanıb. Həmin razılaşmaya görə, bölgədən bütün terror qrupları çıxarılmalı idi. Buna rəğmən, oraya radikal qrupların axını gücələnib. Onlar əyalətin 90 faizinə nəzarəti ələ keçirmişdilər. Rusiya tələb edirdi ki, Türkiyə terrorçuların oradan uzaqlaşdırılmasını təmin etsin. Ankara isə radikal terror qruplarını bilərəkdən oraya Dəməşqin yerləşdirdiyini bəyan edirdi. Tərəflər ortaq nəticəyə gələ bilməyiblər və Moskva hərbi əməliyyatlara baş vurub.

Bu arada Rəcəb Tayyib Ərdoğan Türkiyənin Avropa ilə imzalanan miqrasiya sazişindən çıxdığını bildirib. Deməli, son nəticədə Avropa növbəti miqrant dalğasına rast gələ bilər. E.Makron İdlibdəki vəziyyəti fəlakətli adlandırıb. Qocalar və uşaqların bombalardan həlak olduğunu deyib. V.Putin isə həmin əyalətin terrorçulardan təmizlənməsi zərurətini vurğulayıb. Beləliklə, İdlib məsələsində də Rusiya ilə Fransa fərqli mövqelərində qalıblar. Bölgədən qaçqınların sayı isə durmadan artır.

Ekspertlər məsələnin geosiyasi tərəfinə diqqət yetirirlər. Belə ki, Rusiya ABŞ və Türkiyənin təhlükəsiz bölgə yaratmaq üçün ortaq fəaliyyət göstərməsindən razı qalmayıb. Daha doğrusu, Ankaranın belə bir addım atmaması gərəkliyini çatdırıb. Xarici işlər naziri S.Lavrov deyib ki, Rusiya Türkiyəyə xəbərdar etmişdi ki, İdlib vurulacaq.

Münaqişələrin fonunda V.Putin və E.Makronun ABŞ və Rusiyanın orta və yaxın mənzilli raketlərinin ləğv edilməsi haqqında müqavilədən imtina etmələrinin müzakirəsi maraq doğurdu. V.Putin açıq deyib ki, vəziyyəti Amerika bu hala gətirib. Bu səbəbdən Rusiya ABŞ-ın istehsal etdiyi silahlar gücündə silah istehsal edəcək. Bununla yanaşı, ABŞ həmin silahları yerləşdirməyincə, Rusiya da analoji sistemləri aktivləşdirməyəcək. Yəni Rusiya balansı təmin edəcək və qarşı tərəfin atacağı addımı gözləyəcək. Deməli, iki böyük gücün silahlanma yarışı yeni məzmun kəsb etməyə başlayır.

Bütün bunların fonunda prezidentlərin vahid Avropa konsepsiyası ilə bağlı fikir mübadiləsi aparması marağa səbəb olur. E.Makron "Lissabondan Vladivostoka qədər Böyük Avropa" ideyasını bir daha xatırladıb, bununla bağlı Rusiya şairləri və siyasətçilərin fikirlərindən misallar gətirib. Beləliklə də o, Rusiyanın əsrlərdir ki, Avropaya can atdığını ifadə edib.

Cavabında V.Putin bu ideyanı, əslində, avropalı siyasətçilərin ortaya atdığını deyib. Məsələn, Şarl dö Qoll Atlantikadan Urala qədər vahid Avropa yaratmaqdan bəhs edib. Ancaq Rusiya Sakit okeana qədər uzanır. Bunun hesabına Sakit okeana qədər geniş bir məkan Avropa mədəniyyəti məkanına daxildir.

Bunlar məlumdur, ancaq hazırda bu ideyanı reallaşdırmaq mümkün deyil. Bir sıra ziddiyyətlər vardır ki, onlar ciddi mövqe fərqləri yaradırlar. Lakin V.Putin onu da vurğulayıb ki, belə bir vəziyyət bu ideyanın ümumiyyətlə həyata keçməyəcəyi anlamını ifadə etmir. Nə zamansa, Avropa Lissabondan Sakit okeana qədər vahid olacaq. Məhz o günün gəlməsi üçün çalışmaq lazımdır.

Beləliklə, V.Putinin Fransa səfərində kifayət qədər maraqlı və aktual məsələlər müzakirə edilib. Lakin həmin məsələlər üzrə razılıqların əldə olunduğuna dəlalət edən əlamətlər yoxdur. Tərəflər növbəti dəfə öz mövqelərini ifadə ediblər. Buraya qlobal məsələlərdən tutmuş Avropa-Rusiya münasibətləri, İran, Liviya, Suriya məsələləri, silahsızlaşma problemi və iqlimlə bağlı vəziyyət daxildir. Rusiya-Aİ münasibətlərində isə irəliləyiş olmayıb. Ekspertlərə görə, bu səbəbdən G7-nin Fransadakı sammitində Rusiya ilə bağlı ciddi bir qərar olmayacaq. Həm də Aİ-nin yeni rəhbərlərinin Moskvanı kəskin tənqid etməsi vəziyyətin normallaşma perspektivinin az olduğunu göstərir.

**Newtimes.az**

# Dünyanı fəth edən Azərbaycan muğamı

## 26 Avqust Beynəlxalq Azərbaycan Muğamı və Musiqisi Günüdür

***Hər birimizin mənəvi və ruhi qidası olan Azərbaycan muğamı dünya da birmənalı olaraq, qəbul edilir və mədəni irs siyahısında nadir əsər tək qorunur və təqdim olunur. 26 avqust tarixi bütün muğamsevərlərin, xüsusilə də, bu sənət növünü yaşadan və onun təbliğinə daim yaradıcılıq və həyat yolunu həsr edən şəxslərin bayramıdır. Muğam Azərbaycanın professional musiqi mədəniyyətinin şifahi irsinin mühüm qismini təşkil etməklə, Azərbaycan xalqının mədəni ənənələrində və tarixində dərin köklərə malikdir. Bu mədəni ənənənin Azərbaycanda köklərinin olması ölkədə onun daşıyıcılarının sayı, eləcə də, onun Azərbaycan bəstəkarlarının, rəssamlarının, heykəltəraşlarının və şairlərinin tükənməz ilham mənbəyi olan milli mədəniyyətdə mühüm rolu ilə təsdiqlənir. Muğam sənəti azərbaycanlılar tərəfindən milli özünüdərk və özünü eyniləşdirmənin əsasını təşkil edən başlıca mədəni dəyərlərdəndir. Bu sənət Azərbaycan ərazisində yaşayan talışlar, dağlı yəhudilər, ləzgilər, gürcülər və avarlar kimi etnik qruplar arasında da populyardır.***



### MUĞAM İFAÇILIĞININ YAYILMASINDA ƏDƏBİ VƏ MUSİQİ MƏCLİSLƏRİN ROLU

Muğam - Azərbaycanın ənənəvi musiqisinin ən iri janrının ümumi adıdır, muğam formalarının bütün növlərinə şamil olunur, hərçənd, onlardan hər birinin öz ayrıca adı mövcuddur. Bu janrı təmsil edən başlıca musiqi formaları - dəstgah, muğam və zərbi-muğamdır. Azərbaycan musiqisində mövcud olan bütün muğam formaları arasında öz miqyasına və bədii ideyasına görə ən böyük dəstgahdır. Professional muğam sənətinin tarixinə, mənbələr əsasında diqqət yetirsək, görərik ki, 1922-ci ildə muğamın tədrisi Bakıda açılmış ilk Avropa tipli musiqi tədris müəssisəsinin dərs proqramına daxil edilmişdir. Tədris proqramının tərtibi sonda Azərbaycan dəstgahlarının strukturunda xeyli islahatlara və ənənəvi məhəlli məktəblərin nisbi unifikasiyasına gətirib çıxardı. Üzeyir Hacıbəylinin göstərişinə əsasən, o vaxtın ən nüfuzlu musiqiçilər qruppu, dəstgahların ixtisar edilmiş tədris versiyalarını işləyib-hazırlamışdır. Ötən əsrin 20-ci və 30-cu illərində tədris versiyaları ilə yanaşı olaraq, böyük sənətkarların - o vaxtın ustadlarının genişləndirilmiş versiyaları da mövcudluğunu davam etdirirdi. Muğam ifaçılığının yayılmasında və onun professional şəkil almasında, XIX yüzilin 20-ci illərindən XX yüzilin əvvəllərinə qədər, Azərbaycan şəhərlərində yaranmış ədəbi və musiqi məclisləri böyük rol oynamışlar. Onlardan ən məşhuru Şuşada "Məclisi-Fəramuşan", "Məclisi-Üns", Musiqiçilər Cəmiyyəti, Şamaxıda "Beytüs-Səfa" və Mahmud ağanın musiqi məclisi, Bakıda "Məcmə-üş-Şüəra", Gəncədə "Divani-Hikmət", Ordubadda "Əncümən-üş-Şüəra", Lənkəranda "Fövcül-füsəha" idi. Bu məclislərdə şairlər, ədiblər, musiqiçilər, sadəcə, ziyalı şəxslər, klassik poeziyanın və musiqinin sərrafları və biliciləri toplaşır, muğamları diqqətlə dinləyir, musiqinin və şeirin incə ifası ətrafında müzakirələr aparırdılar. Məclislər özlüyündə, XIX yüzil - XX yüzilin əvvəlində Azərbaycan musiqiçilərinin professional baxımdan, kamilləşmələrində güclü stimul rolunu oynamışdı.

XX yüzilin 20-ci illərindən başlayaraq - sovet dövründə Azərbaycanda musiqi təhsili, o cümlədən, muğamın tədrisi 3 mərhələli sistem üzərinə köçürüldü: məktəb - texnikum - konservatoriya. Beləliklə, muğam sənətinin tədrisi prosesi indi, formal olaraq, 14-15 il vaxt aparır. İfaçılar özləri hesab edirlər ki, professional yetkinlik musiqiçiyə, 5-10 il praktik çıxışlardan tez olmayaraq, çatmaq olar. Beləliklə, muğam ifaçısının ustad, yəni öz peşəsində əsl professional olmasından ötrü 20-25 il vaxt tələb olunur. Tələbin bu səviyyəsi, özlüyündə, muğamı şifahi ənənəvi professional sənət səviyyəsinə qaldırır.

Azərbaycanda sovet rejimi qurulduqdan sonra, xüsusən də, 30-cu illərdən başlayaraq, musiqi mədəniyyəti tamamilə dövlətin nəzarəti altına keçir. Sovet dövlətinin yürütdüyü "dəmir pərdə" siyasəti uzun müddət Azərbaycan musiqisi üçün beynəlxalq musiqi məkanına çıxışı bağlamışdı. XX yüzilliyin əvvəllərində, Şərq incəsənəti Qərb auditoriyasında maraq doğurduğu vaxtlarda Azərbaycan musiqiçiləri məlum siyasi vəziyyətə görə, ona sərbəst çıxışa malik olmadıqları kimi, sovet Şərqinin ənənəvi musiqiçiləri də, belə bir çıxışa malik deyildilər. Müvafiq olaraq, Qərbin bədii məkanında müsəlman Orta Şərqinin musiqi mədəniyyətlərindən daha çox yeri ərəb, İran və türk ənənəvi musiqisi tutmuşdur. Xarici mədəni məkanda Azərbaycan muğamının mövqeyinin itirilməsi ilə yanaşı, Azərbaycanın özünün daxilində də keçən yüzilin 20-30-cu illərin məlum şüarlarında ifadə olunmuş nihilist tendensiya ("Doloy tar!", "Doloy muğam!") tədricən muğam sənətinin ictimai statusunu laxlatdı.

Muğam sənəti XX yüzillikdə Azərbaycan bəstəkarlarının yaradıcılığına ilham verən qaynaq olmuş və olaraq qalır. 1908-ci ildən - Bakıda Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin Azərbaycanda professional musiqi teatrının başlanğıcı olan ilk operasının səhnəyə qoyulduğu tarixdən muğamlar Azərbaycan musiqisindən bir çox musiqi əsərlərinə və yeni janrlara həyat vermişdir. Sonuncular sırasında - muğam operası, simfonik və xor muğamları, sonata-muğam və caz-muğam göstərilə bilər. Azərbaycan bəstəkarlarının ayrı-ayrı əsərlərinin bu gün də böyüməkdə olan çox uzun bir siyahısı muğam ənənələrinə əsaslanır.

### MUĞAMI QORUMAQ, İNKİŞAF ETDİRMƏK MƏQSƏDİ İLƏ HEYDƏR ƏLİYEV FONDU İRİMİQYASLI LAYİHƏLƏR HƏYATA KEÇİRİR

Müasir dövrümüzdə özünün yeni bir inkişaf dövrünü yaşayan Azərbaycan muğamı dövlət tərəfindən qorunur və təbliğ edilir. Azərbaycan xalqının mədəni ənənələri və tarixində dərin köklərə malik olan muğam sənətinin inkişafına və təbliğinə xüsusi önəm verilir. Muğamı qorumaq, inkişaf etdirmək, onun gözəlliyini və dərin fəlsəfəsini gələcək nəsillərə çatdırmaq məqsədi ilə Heydər Əliyev Fondu tərəfindən irimiqyaslı layihələrin həyata keçirildiyini qeyd etməliyik. "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" musiqi albomunu nəfis şəkildə nəşr etmişdir. Albomda 24 virtuoz muğam ifaçısının səsləndirdiyi muğam parçaları qədim və zəngin mədəniyyətimiz barədə dinləyicilərdə geniş təsəvvür yaradır.

Heydər Əliyev Fondu tərəfindən Azərbaycan muğamının inkişafı və dünyada tanıdılması məqsədilə müxtəlif müsabiqələr və beynəlxalq festivallar təşkil edilərək, həyata keçirilir. İlk olaraq, fondun birbaşa dəstəyi ilə keçirilən və Azərbaycan muğam sənətinin inkişafına və təbliğinə böyük töhfələr verən muğam müsabiqələrini və beynəlxalq festivalları qeyd etmək lazımdır. 2005-ci ildə görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin anadan olmasının 120 illik yubileyi münasibətilə Heydər Əliyev Fondu tərəfindən keçirilən muğam müsabiqəsi Azərbaycan tamaşaçıları ilə yanaşı, xaricdə yaşayan soydaşlarımız tərəfindən də razılıqla qarşılandı. Qədim muğam sənətinin qorunub-saxlanılması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi məqsədi ilə fond 2007-ci ildən başlayaraq, hər il, ardıcıl olaraq, muğam müsabiqəsi keçirir.

Azərbaycanın qədim musiqisi olan əsrarəngiz muğam YUNESKO-nun Qeyri-Maddi İrs Siyahısına salınıb. Həm bu, həm də yuxarıda bəhs etdiyimiz məqamlar isə, Mehriban xanım Əliyevanın muğamın yaşadılması ilə bağlı həyata keçirdiyi layihələrin öz bəhrəsini verdiyini bir daha təsdiqləyir.

Bu gün muğam sənətinin nüfuzlu simaları dünya miqyasında Azərbaycan muğam sənətini təbliğ edərək, bu sənəti nadir əsər tək tamaşaçılara çatdırırlar. Deməli olar ki, bu gün Azərbaycan muğamı dünyanı fəth edib. Bu sənətin qocaman, yaşlı, gənc sənətkarları hər zaman öyrənir, öz üzərlərində çalışır və Azərbaycan muğamını çoxsaylı tamaşaçıya təqdim edirlər. Belə bir sənət növü ilə, hər bir azərbaycanlı qürürlanmaqda haqlıdır. Beynəlxalq Azərbaycan Muğamı və Musiqisi Gününün elan olunması bir daha Azərbaycan mədəni irsinə beynəlxalq səviyyədə verilən qiymətdir. Dünya miqyasında keçirilən musiqi festivalı çərçivəsində Azərbaycanın simfonik musiqisi və muğamı günləri təşkil olunur. Konsertlər çərçivəsində "Qarabağ şikəstəsi", "Cahargah", "Heyratı" muğamları ilə yanaşı, Üzeyir Hacıbəylinin, Cövdət Hacıyevin, Qara Qarayevin, Müslüm Maqomayevin və digər klassiklərimizin əsərləri Kanadanın "İpək Yolu" Kamera Orkestrinin ifasında səsləndirilir.

**ZÜMRÜD BAYRAMOVA**

## Bakıda "Salam" Beynəlxalq Yeniyetmə Kino Festivalı keçiriləcək



Sentyabrın 2-dən 5-dək "Narimanfilm" kinostudiyası Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının dəstəyi və "Pasha Holding" MMC-nin və bir çox digər təşkilatların sponsorluğu ilə "Salam" Beynəlxalq Yeniyetmə Kino Festivalını keçirəcək.

AZƏRTAC xəbər verir ki, 300-ə qədər 13-17 yaşlı yeniyetmənin iştirak edəcəyi festivala 10-a yaxın xarici ölkədən gənclər dəvətlidir.

Festival ərəfəsində yeniyetmələr dünya kinematoqrafiyasının nümunələrinə baxaraq filmləri müzakirə edəcək və münsif kimi səs verərək qalibləri müəyyənləşdirəcək. Festival günlərində film nümayişləri ilə yanaşı, praktik məşğələlər, əyləncəli proqramlar və ekskursiyalar həyata keçiriləcək.

"Salam" Beynəlxalq Yeniyetmə Kino Festivalının əsas məqsədi gəncliyimizin milli-mənəvi və ümumdünya dəyərlərinə uyğun tərbiyə olunması, Azərbaycan və digər ölkələrin yeniyetmələri arasında dostluq əlaqələrinin yaradılması, vətənimizin mədəniyyətinin təbliği, həmçinin festivalın xarici iştirakçılarının vasitəçiliyi sayəsində dünya ölkələrində Azərbaycan haqqında müsbət ictimai fikrin formalaşmasına yardımçı olmaqdır. Festivalın açılış mərasimi sentyabrın 2-də "CinemaPlus Amburan Mall"da baş tutacaq.

## Mübariz Əhmədoğlu: "Ermənistanın Çinə meyillənməsi Türkiyə-Rusiya qarşıdurması yaratmaq gücündədir"

***"Ermənistanın Çinə meyillənməsi onun konfliktogenliyindən doğan məsələdir. Ermənistan həmişə iri geosiyasi qütbləri qarşı-qarşıya qoymaqla dividend qazanmağa meyillidir. Bəzən bunun faydasını da görüb. SSRİ-nin dağılmasında iştirak edən ermənilər uzun müddətdir ki, ABŞ-dan çox asan qaydada maliyyə dəstəyi ala bilirlər. Çox zaman siyasi dəstək də alıblar".Bunu KİV-ə açıqlamasında politoloq Mübariz Əhmədoğlu bildirib.***



Onun sözlərinə görə, Çinin sürətlə irəliləməsi Ermənistanın konfliktogenlik potensialını oyatmalı idi. Ermənistanın Çinə, yoxsa Çinin Ermənistana ilk müraciət eməsini araşdırmağa iddialı deyilik: "Fakt odur ki, Çinin Ermənistanda iştirakı xeyli güclüdür, hətta son dövrlərdə bu iştirakda keyfiyyət dəyişikliyi var. Əgər əvvəllər Çinin Ermənistana dəstəyi Asiya İnkişaf Bankı vasitəsilə asan kreditlər verdirməkdən, müəyyən müəssisələr açmağa investisiya qoymaqdan, təcili tibbi yardım maşınları üçün pul ayırmaqdan ibarət idisə, indi artıq Çin Ermənistanın hərbi sahəsinə investisiya qoyur. Çin üçün kiçik olan rəqəm, Ermənistan miqyasında böyük rəqəmdir. Ermənistan ordusunda, o cümlədən, Dağlıq Qarabağda qida təchizatının yaxşılaşdırılması, əsgərlərin qidalanmasının "McDonalds" sisteminə keçməsi Çinin hədiyyəsidir. Çin bəzi hərbi-texniki cihazlar, qurğular da Ermənistana verib. Son dövrlər Çinin səfirinin Ermənistanın müdafiə naziri D.Tonoyanla, qısa müddət ərzində, 2 görüşü və Ermənistanın Təhlükəsizlik Xidmətinin rəhbəri A.Vanetsyanla uzun müddətli söhbəti bunun göstəriciləridir".

M.Əhmədoğlu bildirib ki, Çin iqtisadi amilləri nəzərə almır: "İqtisadi amilləri nəzərə alsaydı, "Nairit" zavodunda Çin investorlarının çox biabırçı vəziyyətdə təhqir edilməsindən müəyyən nəticə çıxarardı. Çünki Ermənistana maraqları geosiyasidir, anti-Türkiyə xarakterlidir və Ermənistan da bunu böyük məmnuniyyətlə qəbul edir. Uyğur məsələsi Çinin böyük xoflarından biridir və Türkiyənin də bu məsələdəki mövqeyini Çin çox yaxşı bilir. Türkiyə indi Çinin özündə uyğur məsələsində dəyişiklik yarada bilmirsə, Türkiyənin bu məsələni unutması anlamında deyil. Türkiyə Çinin Ermənistanda artan iştirakına dözməyərək; hərbi əməliyyatlara qədər gedə bilər. Türkiyənin Ermənistan istiqamətində apardığı hərbi əməliyyatlar Ermənistan dövlətinin atributu ilə yanaşı, bütövlükdə, dövlətçiliyin daşıyıcılarını məhv edə bilər. Rusiyanın bu halda, müqavimət göstərməsi şəksizdir. Çünki Rusiya ilə Ermənistan arasında strateji təhlükəsizlik barədə müqavilə var. Amma o da, nəzərə alınmalıdır ki, Türkiyə Suriya ərazisində ABŞ, İran və Rusiya kimi rəqibləri olduğu halda, hərbi əməliyyatlardan çəkinmir və apardığı hərbi əməliyyatların böyük əksəriyyəti də uğurlu olub. Bundan sonra o, əməliyyatlarını genişləndirəcək. Ona görə də, Ermənistanda Rusiyanın iştirakı Türkiyənin qarşısını ala bilməyəcək.

Rusiyanın Təhlükəsizlik Şurasının katibi N.Patruşevin Yerevana səfəri zamanı müzakirə olunan məsələlərdən biri də bu olub və N.Paşinyanın Mqer Saakyan adlı köməkçisini azad etməsi də Rusiyanın narahatlığının nəticəsi kimi dəyərləndirilməlidir. Mqer Saakyan uzun müddət Çində erməni icmasına rəhbərlik edib və Çinin Ermənistanda iştirakının əsas artan kanalı da, o imiş. Ona görə də, N.Paşinyan onu təcili vəzifədən uzaqlaşdırdı".

***İlham***

## "Hər şey niyyətdən və qafadan asılıdır"

***"Azərbaycan Müdafiə Nazirliyinin MiQ-29 tipli döyüş təyyarəsinin qəzaya uğrama səbəbi barədə məlumatından dərhal sonra radikal düşərgənin "hərşeyşünas" siyasiləri yenə də müxtəlif fantastik iddialarını irəli sürdülər. Həm də xüsusi həyasızlıqla... Hər zaman olduğu kimi dövlətin, xalqın maraqlarını nəzərə almadan, işğalçı ilə qarşı-qarşıya dayanan Sulahlı Qüvvələrimizə böhtan atmaqla...". Bu fikirlər politoloq Elçin Mirzəbəyliyə aiddir.***



Politoloq qırıcı təyyarəmizin qəzaya uğrama səbəbləri barədə son günlər səsləndirilən fikirlərə öz münasibətini bildirib: "Onların iddialarından fərqli olaraq, təyyarə qəzaları ilə bağlı faktlar Müdafiə Nazirliyinin qəzanın səbəbləri ilə bağlı məlumatında yer alan məqamların tamamilə həqiqəti əks etdirdiyini sübuta yetirir.

Qeyd edim ki, hərbi təyyarələrin quş dəstələri ilə toqquşması dünyada ən çox rast gəlinən insident hesab olunur. Belə hadisələr zamanı təkcə MİQ-29-lar deyil, bu təyyarələrdən daha modern pilotlu uçuş aparatları da qəzaya uğrayırlar. Məsələn, bu ilin may ayında ABŞ-ın Yaponiyadakı İvakuni hərbi bazasından uçan F-35 qırıcı təyyarəsi quş dəstəsilə toqquşaraq qəzaya uğrayıb. İyun ayında Hindistanın Hərbi Hava Qüvvələrinə məxsus "Jaguar" qırıcı-bombardmançı təyyarəsi uçuşa başladıqdan bir neçə saniyə sonra quş dəstəsi ilə toqquşub.

Bu il ABŞ Hərbi Hava Qüvvələrinə məxsus F-16 təyyarəsi ilə oxşar insident Nyu-Meksika ştatında yerləşən Holloman poliqonunda baş verib. F-16 eniş zamanı qartalla toqquşaraq ciddi zərər görüb. Floridada ABŞ HHQ-nə məxsus bombardmançı təyyarənin quş dəstəsi ilə toqquşması nəticəsində isə üç təlim bombası yerə düşüb. Xoşbəxtlikdən hər biri 11 kq-dan ibarət təlim bombaları yaşayış olmayan ərazilərə düşdüyü üçün insan tələfatı və dağıntı olmayıb.

Bu il İsveçə məxsus "Jas 39 Gripen" qırıcısı ölkənin cənubunda keçirilən təlim zamanı quş dəstəsi ilə toqquşib, nəticədə pilot həlak olub.

Onu da qeyd edək ki, ABŞ-ın əsasən hərbi araşdırmalar və xəbərlər üzrə ixtisaslaşmış "Marine Corps Times" qəzetinin verdiyi xəbərə görə, təkcə 2018-ci ildə dünyada hərbi və mülki təyyarələrin quş dəstələri ilə toqquşması nəticəsində 14500-də artıq qəza və insident baş verib.

Hərbi ekspert deyiləm və olmaq niyyətim də yoxdur. Amma internet resurslarında bir neçə dəqiqəlik axtarış nəticəsində yüzlərlə fakt əldə edə bildim və oxucuların vaxtını almaq istəmədiyim üçün onlardan bir neçəsini diqqətə çatdırdım. İstənilən şəxsin belə məlumatları əldə etmək imkanı var, şübhəsiz. Hər şey niyyətdən və qafadan asılıdır".

## Çətənə bitkisi yetişdirən keçmiş məhkum tutulub



Kultivasiya yolu ilə yetişdirilən narkotik tərkibli bitkilərin aşkarlanması və bu qanunsuz fəaliyyətlə məşğul olan şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində Tərtər Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən tədbirlər uğurla davam etdirilir. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, çətənə bitkisi yetişdirməkdə şübhəli bilinən Tərtər şəhər sakini, əvvəllər məhkumluğu olan Seymur Əliyev avqustun 23-də Tərtər Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində saxlanılıb. Onun yaşadığı ünvana baxış keçirilən zaman evin həyətində aqrotexniki qaydada qulluq etdiyi 13 çətənə bitkisi aşkar edilərək götürülüb. Faktla bağlı araşdırmalar davam etdirilir.

## "İşsizin DOST"u proqramının icrası tam şəffaf aparılır

"İşsizin DOST"u proqramı əsasında işə cəlb olunanlar məşğulluq orqanlarında işsiz və işaxtaran kimi qeydiyyatda olan vətəndaşlar arasından müəyyən edilir. Məşğulluq mərkəzlərinin müvafiq göndərişi əsasında həmin şəxslərlə "DOST İş Mərkəzi"ndə əmək müqaviləsi bağlanılır və elektron informasiya sistemində qeydiyyatdan keçirilərək rəsmiləşdirilir. Bundan sonra hər bir işçi üçün sifariş olunmuş əməkhaqqı kartı bank tərəfindən yalnız vətəndaşın özünə şəxsiyyət vəsiqəsini təqdim etməsi şərti ilə verilir, kartı götürərkən vətəndaş bunu imzası ilə təsdiq edir.



Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Fazil Talıbov "İşsizin DOST"u proqramı əsasında işə cəlb olunma mexanizmi barədə AZƏRTAC-a məlumat verərək deyib. "İşə qəbul edilmiş şəxslərin siyahısı müvafiq rayon (şəhər) İcra Hakimiyyətlərinin yerli qurumlarına (Mənzil-Kommunal Təsərrüfatı birlikləri, yaşıllaşdırma, tikinti-təmir idarələri və s.) təqdim edilir və bu qurumlar onları ictimai işlərə cəlb edirlər. Bundan sonra həmin işçi qüvvəsinin işə davamiyyətinə, tapşırılan işləri yerinə yetirməsinə nəzarəti məhz həmin qurumlar icraçı qismində həyata keçirir. Yəni, "DOST İş Mərkəzi" ilə həmin qurumlar arasında bağlanan Saziş əsasən işçi qüvvəsi "DOST İş Mərkəzi"nin rəsmi işçiləri hesab olunmasına baxmayaraq, onların nizam-intizamına və gündəlik fəaliyyətinə yerli icraçı qurumlar birbaşa cavabdehlik daşıyır.

Bütün işçilər icraçının tapşırığı ilə və onun birbaşa nəzarəti altında fəaliyyət göstərir. Hər ayın sonunda icraçı tərəfindən təqdim olunmuş davamiyyət cədvəllərinə (tabellərə) əsasən mərkəz tərəfindən ictimai işçilərin əməkhaqları birbaşa onların kartlarına köçürülür. Davamiyyət cədvəlləri olmadan əməkhaqqı köçürülmür.

Əgər hansısa işçi üzrsüz səbəbdən işə çıxmırsa, məhz icraçının müraciəti ilə onunla bağlanılmış əmək müqaviləsi ləğv edilir. "DOST İş Mərkəzi" tərəfindən də daxili icraat qaydasında mütəmadi nəzarət olunur, monitorinqlər keçirilir, çatışmazlıqlar olduqda icraçı təşkilatların diqqətinə çatdırılır", - deyə nazirliyin sözçüsü bildirib.

## Psixoloq: "Müəllimlər işə qəbul olunarkən onların psixoloji hazırlıq səviyyəsi nəzərə alınmalıdır"

Müəllimlər işə qəbul olunarkən onların psixoloji hazırlıq səviyyəsi də nəzərə alınmalıdır. Çünki müəllim həm şagirdlərlə, həm valideynlərlə, həm də rəhbərliklə işləməyi bacarmalıdır. Bəzən olur ki, müəllimin ixtisas biliyi, dünyagörüşü onun psixoloji durumu ilə üst-üstə düşmür. Bu da tədris prosesinə mənfi təsir göstərir. Bu fikri AZƏRTAC-a müsahibəsində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Təlimə Dəstək Mərkəzinin psixoloqu Səidə Əhmədova deyib. O bildirib ki, müsahibədə iştirak edən namizədlərin əksəriyyətinin psixoloji vəziyyəti yüksək səviyyədədir.

"Müsahibə zaman çalışırıq ki, namizədlərin hansı müəllim üslubuna - avtoritar, liberal, yaxud da demokratik malik olduğunu müəyyən edək. Sevindirici haldır ki, indiyədək müsahibədən keçən müəllimlərin çoxu demokratik üsluba üstünlük veriblər", - deyə Səidə Əhmədova qeyd edib.

## Sahibkarlar Ufada beynəlxalq festivalda iştiraka dəvət olunurlar

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) sahibkarlara müraciət edib. AZPROMO-dan bildirilib ki, noyabrın 20-23-də Rusiyanın Başqırdıstan Respublikasının Ufa şəhərində IV "Bizim Brend" Festivalı keçiriləcək. Ölkəmizdə fəaliyyət göstərən sahibkarlar və iş adamları festivalda iştiraka dəvət olunurlar.

# Əli Kərimli gəncləri aqressiv formada qanunları pozmağa məcbur edir

## AXCP üzvü və ya qeyrisi cinayət törədirsə, onlar mütləq cəzalarını almalıdır

***Son günlər müxalifətin yarıtmaz və satqın xislətli partiya liderləri müxtəlif təxribatları ilə yeni formatda gündəmə gəlməyə çalışırlar. Xüsusilə də AXCP sədri Əli Kərimli ardıcıl xarakterli populist açıqlamaları, status və vidio paylaşmaları ilə xaricdən növbəti tapşırıq aldığını nümayiş etdirir. Çünki, əgər belə olmasa idi, ölkədə böyük iqtisadi-sosial uğurların geniş vüsət aldığı bir vaxtda o sosial şəbəkələrə çıxıb, müxtəlif şoular düzənləməyə cəhd etməzdi. Onun pozuculuğa və təxribatlara hesablanan siyasəti bir daha onu deməyə əsas verir ki, Ə.Kərimli xalqa və dövlətə düşmən kəsilib.***

Yəni, öz məkrli palanlarını və eləcə də, xarici qüvvələrin sifarişlərini yerinə yetirmək üçün şeytanla belə əməkdaşlıq münasibətləri qurmaqdan çəkinmir. Mövcud faktlara baxmayaraq, fəaliyyətini qərəzli xarici dairələrin dağıdıcı maraqlarının təmin olunması missiyası üzərində quran Ə.Kərimli Azərbaycanda xaos yaratmaq üçün ən müxtəlif çirkin vasitə və üsullardan istifadə etməkdən çəkinmir. Bu da onun çirkin, yaramaz siyasətinin dəyişməsinin mümkün olmadığını göstərir. Bununla da bir daha əminliklə demək olar ki, xalqdan ayrı düşən dağıdıcı müxalifətin sağlam fəaliyyət yolu tutması və ya fəaliyyət göstərməsi mümkün



deyil. Partiya sədrlərinin yeniləri ilə əvəzlənməsi də heç nəyi dəyişməyəcək. Çünki, hazırkı məqamda müxalifət düşərgəsində təmsil olunan partiya sədrlərinin böyük əksəriyyəti siyasətə gəlir mənbəyi kimi baxır. Sədrlik kreslosunu da, məhz buna görə tərk etmək istəmirlər. AXCP və Müsavat kimi partiya sədrləri xarici qüvvələrlə iş birliyinə getməklə, xarici qüvvələrdən və ya fondlardan maliyyə yardımları alıblar. Ancaq siyasətdə uğur qazana bilməyiblər. Çünki müxalifət başbilənlərindən birinin, bir zaman dediyi kimi, "pul qoyub, pul götürmək olar, amma pul qoyub, siyasətdə uğur əldə etmək olmaz". AXCP sədr Ə.Kərimlinin, Müsavat başqanı A.Hacılının, Müsavatın keçmiş başqanı İ.Qəmbərin siyasi fəaliyyətlərinə nəzər yetirdikdə, hər şeyin məlum olduğunu görmək olar. Bu məxluqlar az qala yaşlarının yarısını siyasətə qurban versələr də, qazandıqları ancaq xalqın ittihamı, tənqid və iradları olub. "Müasir Müsavat" partiyasının sədri Hafiz Hacıyevin sözlərinə görə, Əli Kərimli, Arif Hacılı, İsa Qəmbər və digər dağıdıcı partiya sədrlərinin fəaliyyətlərinin araşdırılmasına zərurət var: "Bu adamların fəaliyyəti ciddi şəkildə araşdırılsa, kifayət qədər cinayət əməlləri üzə çıxar. Əli Kərimli öz liderini zəhərləyən öldürən adamdır. Elçibəy xəstə yatağında olanda Əli Kərimli "Azadlıq" qəzetində onun ünvanına qeyri-etik yazılar yazdırırdı. Elçibəyin cənazəsi gələn gün Əli Kərimlinin sifarişi ilə "Azadlıq" qəzetinin manşetində onu təhqir eləmişdilər. İndi belə bir adamdan nə gözləmək olar? Əli Kərimli də İsa Qəmbər də xarici qüvvələrə işləyirlər, ordan maliyyə alırlar və bu yolla ölkədə qarışıqlıq salmağa çalışırlar. Hesab edirəm ki, radikal müxalifətin xariclə əlaqələri, bank hesabları, yaxın ətrafının maliyyə qaynaqları da araşdırılmalıdır. Əgər dərindən araşdırma aparılsa, onları həbsə atmaq üçün kifayət qədər əsas tapmaq olar".

### AXCP sədri növbəti təxribatı ilə gündəmə gəlməyə çalışır

Mövcud reallıqlara əsasən demək olar ki, Ə.Kərimli müxalifət düşərgəsindəki boşluqdan istifadə etməklə sərsəm iddiaları, populist açıqlamaları ilə diqqət mərkəzinə çevrilməyə çalışır. Həm də, müxalifətin "lideri" " olmaq arzusunu reallaşdırmaq istiqamətində növbəti cəhdlərini göstərir. Son günlər AXCP-nin 4 üzvünün həbs olunmasına dair paylaşım müxalifət fəalları tərəfindən müzakirə olunur. Xüsusən AXCP üzvlərinin hesablarında və bu təşkilatın nəzarətində olan səhifələrdə yayılan paylaşım da bildirilir ki, hakimiyyət Ə. Kərimlidən qorxduğu üçün onun rəhbərlik etdiyi partiyaya qarşı belə mövqe sərgiləyir. Söz yox ki, gülüş doğuran paylaşmalardır. Çünki, AXCP-nin hansı resursu var ki hakimiyyət ondan qorxsun? Digər tərəfdən ölkəmizdə cinayətkarlığa qarşı ciddi mübarizə aparılsa da arasıra cinayət əməllərinin törədilməsi halları qeydə alınır. Həmin cinayəti törədənlərdən və buna görə də, həbs olunanlardan bir neçəsi də, Ə.Kərimlinin rəhbərlik etdiyi AXCP-nin üzvləridir. Bu baxımdan sual yaranır, AXCP üzvü olmaq insanlara hansısa immunitet verir? AXCP üzvü və ya qeyrisi cinayət törədirsə, onlar mütləq cəzasını almalıdır. Cinayət cəzasız qalanda, növbəti cinayət törədilə bilər, necə ki, dəfələrlə Ə. Kərimlinin rəhbərlik etdiyi partiya üzvləri cinayət törədiklərinə görə həbs edilsələr də, partiyada cinayətə meyilli üzvlər hələdə təxribatlarını davam etdirməkdədirlər. Ə.Kərimlidən soruşulmalıdır ki, bu partiya üzvlərinin tez- tez həbs olunduğunu bəyan edirsə, deməli onun tərkibi ilə bağlı problem var. Kriminal elementləri partiya sıralarına qəbul edəndə nəticə də belə olmalıdır.

Bir sözlə, görünən odur ki, Ə. Kərimli bilərəkdən gəncləri aqressiv formada fəlaiyyətə təhrik edir, onları qanunu pozmağa məcbur edir ki, dövlət də adekvat tədbirlər görəndə bundan siyasi məqsədlər üçün istifadə etsin. Bu baxımdan AXCP üzvü olan gənclərin valideynləri aylq-sayıq olmalıdır, növbəti həbs edilən sizin ovladınız ola bilər. Çünki, Ə.Kərimlinin siyasəti, istək və palanları bundan ibarətdir.

***İ.ƏLİYEV***

# "Nar"ın abunəçi bazası sürətlə artmaqdadır

***"Nar" 2019-cu ilin 6 ayı ərzində əldə etdiyi nailiyyətlər barədə açıqlama edib. Mobil operatorun təqdim etdiyi tariflər və qiymətlərin sərfəli olması, baza stansiyalarının sayının sürətlə artımı, abunəçilərə göstərilən yüksəkkeyfiyyətli internet xidməti sayəsində "Nar"ın abunəçi bazası çoxalıb. Belə ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə aktiv abunəçi bazası 13% artıb. Hazırda mobil operatorun istifadəçilərinin sayı 2,3 milyona yaxınlaşıb.***

Ötən yarım ilin nəticələrinə əsasən, "Nar" mobil şəbəkəsini daha da genişləndirməyə nail olub. Mobil operator 6 ay ərzində 490 yeni baza stansiyası quraşdırıb. Hazırda "Nar"ın 4G baza stansiyalarının sayı 2140-ı, 3G baza stansiyalarının sayı isə 2700-ü ötüb. Bununla da "Nar" ölkədə ən geniş 4G şəbəkəsinə malik mobil operator olub. Aparılan şəbəkə təkmilləşmə işlərinin nəticəsi olaraq paytaxla yanaşı, regionlarda da "Nar" şəbəkəsi daha da gücləndirilib. Hazırda 53 region 4G baza stansiyası ilə təmin edilib.

Ölkə ərazisində yeni baza stansiyalarının sürətlə quraşdırılması sayəsində 4G istifadəçilərinin sayı 96% artıb. "Nar" abunəçiləri arasında smartfon iştifadəçilərinin sayı isə 17% çoxalıb. Ümumilikdə, mobil operatorun abunəçiləri arasında smartfon iştifa-



dəçilərinin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə regionlar üzrə 15%, Bakı üzrə isə 18% artıb.

Media nümayəndələrinin iştirakı ilə yarım ilin nəticələrinin açıqlandığı mətbuat konfransında "Azerfon"un baş icraçı direktoru Qunnar Panke bildirib ki, "Nar" 6 ay ərzində nəzərəçarpacaq nəticələr əldə edib: ""Nar" olaraq əsas hədəflərimizdən biri üstün müştəri məmnuniyyətinə nail olmaq və hər bir müştəriyə fərdi yanaşmanı yüksək səviyyədə təmin etməkdir. Azərbaycan mobil rabitə bazarında müşahidə olunan güclü raqabət mühitində biz müştəri yönümlü strategiyamızı uğurla davam etdirmişik və müştəri məmnuniyyətində artıma nail olmuşuq. Müştərilərə göstərdiyimiz yüksəkkeyfiyyətli xidmət sayəsində 2 il ərzində ilk dəfə olaraq müştəri loyallığı indeksi üzrə mobil operatorlar arasında "Nar" birinci olub".

"Nar" abunəçilərinə Çağrı Mərkəzləri, nar.az internet səhifəsi ilə yanaşı, sosial media vasitəsilə də yüksəkkeyfiyyətli və operativ müştəri xidmətləri göstərməkdə davam edir. Belə ki, son 6 ay ərzində mobil operatorun sosial şəbəkələri vasitəsilə abunəçilər tərəfindən 115 mindən çox müraciət daxil olub. Sosial şəbəkələr vasitəsilə daxil olmuş müraciətlərin 94,7%-i bir dəqiqə ərzində cavablandırılıb.

2019-cu ilin 6 ayı ərzində mobil operator ikiqat internetdən istifadə və daha çox ünsiyyət qurma imkanı verən "CavanNar" tarifini, eləcə də xaricə səyahət etmək istəyən abunəçiləri üçün sərfəli rominq paketləri təqdim edib.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

səs
www.sesqazeti.az
facebook Ses Media Holding
24 avqust 2019-cu il

# İnternet trolları qul psixalogiyasından əl çəkmirlər

## *Vətəninəməhəbbət hissindən uzaq olan orduxanlar, isgəndərlilər, sadıqlılar, məmmədovlar və digərləri satqın fəaliyyətləri ilə həm də, kölə olduqlarını nümayiş etdirirlər*

***Anti-Azərbaycan şəbəkənin missionerləri olan dağıdıcı düşərgənin əsas ideoloqları AXCP sədri Əli Kərimli, Müsavat başqanı Arif Hacılı, "Milli Şura"nın rəhbəri Cəmil Həsənli və digərləri, davamlı olaraq, ifşa olunmalarına baxmayaraq, hələ də öz iyrənc əmələrindən əl çəkmirlər. Əksinə, demək olar ki, hər zaman müxtəlif şoularla ənənəvi ampualarında olduqlarını nümayiş etdirirlər.Bəzən "mühacir" biznes şəbəkələrini genişləndirmək üçün sosial şəbəkələrdə çağırışlar da edirlər.***



Bu isə, onu deməyə əsas verir ki, müxalifətin əsas gəlir mənbəyi saxta partiya vəsiqələri sayəsində, Avropanın bəzi ölkələrindəmilli və dövlətçilik maraqlarımıza qarşı şər və böhtan kampaniyası aparan Qurban Məmmədov, Orduxan Teymurxan, Tural Sadıqlı, Azər Kazımzadə, Vidadi İsgəndərli, Məhəmməd Mirzəli kimilər də, məhz dağıdıcı müxalif başbilənlərinin istək və tələblərini yerinə yetirən mühacir işbazlardandırlar. Bu işbazlar məkrli qüvvələrin vəermənipərəst şəbəkələrin dilənçi payı ilə ölkəmizə qarşı şər-böhtan və qarayaxma kampaniyası aparırlar. Milli mənlik şüurundan, vətəndaşlıq qürurundan, döğulub boya-başa çatdıqları Vətəninəməhəbbət hissindən uzaq olan orduxanlar, isgəndərlilər, sadıqlılar, məmmədovlar və digərləri satqın fəaliyyətləri ilə kölə olduqlarını nümayiş etdirirlər.

### Müxalifətin səhv siyasəti cəmiyyətdə onlara qarşı nifrət hissini gücəndirir

Yuxarıda qeyd etdiyim kimi, müxalifət liderlərinin ölkəmizin milli və dövlətçilik maraqlarını maddi maraq qarşılığında satmaları, cəmiyyətə bəlli olan fakt olsa da, onlar bunun fərqinə varmaq istəmirlər. İyrənc fəaliyyətlərini saxta partia vəsiqələri satmaqla yanaşı, xaricdən verilən sifarişə əsasən, "siyasi məhbus" siyahıları satmaqla da genişləndirirlər. Amma bəzən, onların planları iflasa uğrayır. Yəni bu istiqamətdə, özlərini "hüquq müdafiəçisi" kimi təqdim edənlər olduqlarından, arada ziddiyyətlər də yaranır. Sonrakı mərhələdə isə, bu ziddiyyətlər kəskin qarşıdurmalara gətirib çıxarır. Misal üçün, AXCP sədri Ə.Kərimli "siyasi məhbus" siyahısı hazırlayıb, sosial şəbəkələrdə paylaşdıqdan az sonra qondarma "hüquq müdafiəçisi" Xədicə İsmayıl "siyahıya" öz etirazını bildirən açıqlamalarla çıxış etdi.X.İsmayıl iddia etmişdi ki, Ə.Kərimli həmin "siyahıya" aidiyyatı olmayan şəxslərin ad və soyadlarını əlavə edərək, onların ailələrindən müəyyən məbləğdə pul alıb. X.İsmayıl Ə.Kərimlinin, siyasi partiya sədri olaraq, bu kimi məsələlərə qarışmasının yolverilməz olduğunu müəyyən təşkilatlara çatdırıb. Ə.Kərimlinin ətrafında olan trollar X.İsmayıla öz yerini göstərmək üçün kampaniyaya başlamaqla, aralarındakı qarşıdurmanı daha da kəskinləşdirmişdirlər. Qarşıdurmaya qoşulan Sevinc Osmanqızı ad və soyadlı Qərbin əlaltısı Ə.Kərimlini hər vəchlə haqlı çıxarmağa və X.İsmayılı qaraniyyətli və boşboğaz adlandırmağa çalışdı. Ancaq X.İsmayıl geri çəkilən məxluqlardan olmadığını gösrərmək üçün Ə.Kərimliyə və S.Osmanqızına qarşı əks-hücuma başladı. X.İsmayılın iddiasına görə, S.Osmanqızı Ə.Kərimlinin böhtan kampaniyasının əsas icraçılarındandır və Osmanqızının maliyyələşdirilməsində Rəsul Quliyevin də rolu var. İttihamlara cavab verməkdənsə, S.Osmanqızı onun barəsində üzə çıxan faktlara qarşı arqument qoya bilmədiyi üçün, sadəcə, X.İsamayılı xəstə adlandırıb.

### Əli Kərimlidoymuş məhlula çevrilib

25 ildən artıqdır ki, siyasətdə olan, ancaq irəliyə doğru addım ata bilməyən müxalifətsəhvlərini düzəlməyə calışmır. Bu isə, onların sağlam siyasətə meyilli olmadıqlarını göstərir. Sübut edilən faktlar ondan ibarətdir ki, Müsavat başqanı A.Hacılının və AXCP sədri Ə. Kərimlinin fəaliyyətləri ermənilərin Azərbaycana qarşı həyata keçirdikləri informasiya müharibəsinin başlıca istiqamətləri ilə tam şəkildə üst-üstə düşür. Dəfələrlə, xüsuilə də, 2016-cı il aprel zəfəri zamanımüxalifət liderləri daxildə vəziyyəti gərginləşdirməyə xidmət edən çağırışlarla çıxış ediblər. Əsas məqsəd ictimai rəyi yanlış istiqamətə yönəltmək, xalqın vətənpərvərlik ruhunu, xalqla hakimiyyət arasında birliyi sarsıtmaq və bununla da, dövlətimizin əldə etdiyi mühüm nailiyyətin əhəmiyyətini heçə endirməkdir. Bununla yanaşı, AXCP sədri Ə.Kərimli hərbi əməliyyatların davam etdirilməsi, müharibənin daha da alovlanması ilə bağlı populist çağırışlar edir, daxildə vəziyyəti gərginləşdirməklə, məntiqi yekuna yaxınlaşan münaqişənin ədalətli şəkildə və sülh yolu ilə həllinə zərbə vurmağa çalışır. Belə bir mühüm dönüş nöqtəsində, müharibə tələbi ilə çıxış etməsi Ə.Kərimlinin qaniçən cani olduğunu göstərir.Artıq Ə.Kərimlinin millivə dövlətçilik maraqlarına zidd, ermənipərəst fəaliyyətinə son qoyulmalıdır. Cəzasızlıq isə, onun dövlətçilik maraqlarımız qarşısında daha da quduzlaşmasına səbəb olur. İctimai çağırışa müvafiq olaraq, Ə.Kərimli məsuliyyətə cəlb olunub, layiq olduğu cəzanı almalıdır. Ona törətdiyi bəd əməllərinə görə, cərimə tətbiq etmək hümanistliyin nümunəsidir. Ə.Kərimli kimilər isə, bu hümanistliyin mahiyyətini dərk edə bilməzlər. Onlara zopa lazımdır.

**İ.ƏLİYEV**

# Xəbərdarlıq: Bu gün havanın temperaturu 36 dərəcəyə çatacaq!




Azərbaycanda avqustun 24-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava əsasən günəşli olacaq. Şimal küləyi əsəcək, gündüz mülayim cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 22-25°, gündüz 33-36° isti, Bakıda gecə 22-24°, gündüz 33-35° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 758 millimetr civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 25-30 faiz təşkil edəcək.

Abşeron çimərliklərində şimal küləyi əsəcək, gündüz mülayim cənub-şərq küləyi ilə əvəzlənəcək. Dəniz suyunun temperaturunun şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh və Zuğulbada 26-27°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil və Şıxda 27-28° isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək, lakin axşam bəzi qərb rayonlarında şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Səhər bəzi yerlərdə zəif duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 35-40° isti, dağlarda gecə 13-18°, gündüz 23-28° isti olacağı ehtimal edilir. Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, avqustun 24-25-də Bakıda və Abşeron yarımadasında zəif küləyin üstünlüyü fonunda günorta saatlarında isti temperatur diskomfortu gözlənilir ki, bu da meteohəssas insanlar üçün əlverişsizdir.

## *Zaqatalada quldurluq edən şəxslər saxlanılıb*

Avqustun 16-da üç naməlum şəxs Zaqatala rayonunun Çökək kənd sakini Teymur Ağakişiyevin evinə quldurluq niyyəti ilə daxil olub, ev sahibinin əlqolunu bağlayaraq hədə-qorxu gəlib və pul tələb ediblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Şəki regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, həmin şəxslər 300 manat pul və 1000 manat dəyərində qızıl-zinət əşyalarını götürərək hadisə yerindən uzaqlaşıblar.

Zaqatala Rayon Polis Şöbəsinə məlumat daxil olan kimi dərhal hadisə yerinə əməliyyat-istintaq qrupu yollanıb və mənzilə baxış keçirilib. Həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində cinayətin rayonun Kebeloba kənd sakinləri Fərhad və İsmayıl Zəngiyevlər tərəfindən törədildiyi müəyyən edilib. Onlar şübhəli şəxs qismində saxlanılaraq polis şöbəsinə gətiriliblər. Cinayəti törədərkən istifadə etdikləri əlcəklər, maskalar və digər əşyalar maddi sübut kimi götürülüb. Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, istintaq aparılır.

## Göyçayda evdən külli miqdarda pul oğurlanıb



Daxili işlər orqanlarının əməkdaşları oğurluqla məşğul olan şəxsləri yaxalayıblar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, avqustun 8-də Göyçay rayonunun Mırtı kəndindəki evlərin birindən 14,5 min manat pul oğurlamaqda şübhəli bilinən kənd sakini E.Abseyidov rayon polis şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində saxlanılıb. İyulun 22-də Bakı şəhər sakini B.Nərimanbəyliyə məxsus içərisində 700 manat və sənəd olan pul kisəsini oğurlamaqda şübhəli bilinən Şirvan şəhər sakini, əvvəllər məhkum olunmuş Ş.İsmayılov isə Xətai Rayon Polis İdarəsinin 34-cü Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində yaxalanıb. Faktlarla bağlı araşdırmalar davam etdirilir.

**Yeni əsrin ilk illərindən Azərbaycan dövləti tərəfindən insan hüquqlarının qorunması, hüquq və azadlıqlarının təmin olunması sahəsində ardıcıl tədbirlər həyata keçirildi. Avropa Şurasına üzv qəbul olunduqdan sonra Azərbaycan "İnsan hüquqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına" qoşuldu. Bu zaman, o öz üzərinə milli qanunvericiliyin beynəlxalq Avropa standartlarına uyğun təkmilləşdirilməsi öhdəliyini götürdü. Bu istiqamətdə atılan addımlardan ən mühümü Ombudsman təsisatının yaradılması idi. 2001-ci il dekabrın 28-də Milli Məclis tərəfindən "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanunu qəbul olundu.**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# İnsan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi

Məlum olduğu kimi, demokratik-hüquqi dövlətin, qanunun aliliyi, insan hüquqları və sosial ədalət kimi fundamental əsaslarının möhkəmləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 27 dekabr 2011-ci il tarixdə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" qəbul olunub. İnsan hüquqları aylığı çərçivəsində "Milli Fəaliyyət Proqramı"nın müddəalarına əsaslanmaqla, ölkəmizin bütün regionlarında dövlət qurumları, QHT və KİV-lər, beynəlxalq təşkilatlar, icmalar tərəfindən insan hüquqlarının effektiv müdafiəsinə yeni mərhələ açan, əhalinin müxtəlif qruplarını əhatə etməklə, insan hüquqlarını təbliğ edən mövzularda müxtəlif maarifləndirmə tədbirləri və müzakirələr təşkil olunur.

Milli Fəaliyyət Proqramında əhalinin müxtəlif, o cümlədən, həssas qruplarına aid olan şəxslərin - qaçqın və məcburi köçkünlər, məhkumlar, hərbi qulluqçular, qadınlar, uşaqlar, ahıllar, əlillər və başqalarının hüquqlarının təmin edilməsində səmərəliliyin artırılması məqsədilə fəaliyyət istiqamətləri müəyyən olunur. Bu baxımdan, yoxsulluğun azaldılması, məşğulluğun təmin olunması, qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi və digər sahələrdə, artıq qəbul olunmuş müvafiq xüsusi dövlət proqramlarının icrasına "Milli Fəaliyyət Proqramı" kontekstindən yanaşılmalıdır.

Danılmaz həqiqətdir ki, dövlət orqanlarının səmərəli fəaliyyəti, qarşıda duran vəzifələrin və funksiyaların uğurla yerinə yetirilməsi, ilk növbədə, yüksək ixtisaslı, müasir dünyagörüşünə malik, ədalətli, prinsipial və bacarıqlı kadrların sayəsində mümkündür. Dövlət məmurları insan hüquqlarının səmərəli və etibarlı təmin olunması kimi ümumdövlət maraqlarını rəhbər tutmağa borcludurlar.

Azərbaycan Respublikası qanunları layihələrinin hazırlanması zamanı Azərbaycan Respublikasının Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş insan hüquq və azadlıqlarının əsas meyar kimi rəhbər tutulur.

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində müəyyən edilmişdir ki, insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Bu məqsədə nail olmaq üçün Azərbaycan Respublikasında qəbul edilən qanunların, ilk növbədə, Azərbaycan Respublikasının Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş insan hüquq və azadlıqlarının təmin olunmasına yönəldilməsi zəruridir. Ölkədə yaranmış qanunyaradıcı təcrübə göstərir ki, qanunların hazırlanması zamanı Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr rəhbər tutulur, habelə, bir çox qanun layihələri onların hazırlanması prosesi zamanı insan hüquqları sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatların ekspertizasına təqdim olunur, onların rəyi nəzərə alınmaqla qəbul edilir.

Bu sahədə tədbirləri həyata keçirən icra orqanları Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Azərbaycan Respublikasının Nazirlər Kabinetidir

Azərbaycan Respublikasının tərəfdar çıxdığı insan hüquqlarına və azadlıqlarına dair beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin həyata keçirilməsi və Azərbaycan Respublikasının normativ-hüquqi aktlarının beynəlxalq hüquqi sənədlərə uyğunluğu təmin edilir. Azərbaycan Respublikası insan hüquqlarına və azadlıqlarına dair beynəlxalq müqavilələrə tərəfdar çıxaraq, öz yurisdiksiyası daxilində hər kəsin insan hüquq və azadlıqlarının təmin edilməsi öhdəliyini öz üzərinə götürmüşdür. Bu öhdəliyin yerinə yetirilməsinə nəzarət mexanizmləri çərçivəsində Azərbaycan Respublikası tərəfindən təqdim olunan insan hüquq və azadlıqlarının təmin edilməsinə dair dövri hesabatlar üzrə Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının və digər hökumətlərarası təşkilatların ixtisaslaşmış qurumlarının rəy və tövsiyələrinin həyata keçirilməsi əhəmiyyət kəsb edir. Bununla yanaşı, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icra edilməsi çərçivəsində qanunvericiliyin təkmilləşdirilməsi sahəsində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Göstərilən öhdəliklərin yerinə yetirilməsi zamanı tövsiyələrin ətraflı təhlili, görüləcək tədbirlərin və onların icrasına məsuliyyətli dövlət qurumlarının müəyyən edilməsi zəruridir. Bununla əlaqədar olaraq, qeyd olunan prosesə aşağıda göstərilən qurumların cəlb edilməsi nəzərdə tutulur. Bu işə, həmçinin, insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən yerli qeyri-hökumət təşkilatları cəlb edilir. Bu sahədə tədbirləri həyata keçirən icra orqanları Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının ədliyyə, xarici işlər nazirlikləri, Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutudur.

Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında Azərbaycan Respublikası Qanununun qəbul edilmişdir. Barəsində həbs qətimkan tədbiri seçilmiş şəxslərin həbsdə saxlanılmasının qanuniliyinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əlavə və dəyişikliklərin edilməsi haqqında qanun layihəsini Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının Milli Məclisi hazırlayır. Ekstradisiya olunmaq üçün tutulmuş şəxslərin hüquqlarının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əlavə və dəyişiklikləri Azərbaycan Respublikası Prezidentinin Administrasiyası hazırlayır. İnformasiya texnologiyalarından istifadə etməklə, insan hüquqlarının pozulmasına qarşı mübarizənin səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "Kompyuter informasiyası əleyhinə olan cinayətlər" fəslinin yenidən işlənməsi və onun "Kibercinayətkarlıq haqqında" 2001-ci il 23 noyabr tarixli Konvensiyanın tələblərinə uyğunlaşdırılması barədə təklifləri Azərbaycan Respublikası Prezidentinin Administrasiyası hazırlayır. Uşaqların cinsi istismarının qarşısının alınması məqsədilə cinayət qanunvericiliyinin beynəlxalq hüquq standartlarına uyğunlaşdırılması barədə təklifləri Azərbaycan Respublikası Prezidentinin Administrasiyası hazırlayır. Hüquqi şəxslər tərəfindən insan hüquqlarının pozulmasının qarşısının alınması məqsədilə onların cinayət məsuliyyətinin müəyyən edilməsinə dair təklifləri Azərbaycan Respublikası Prezidentinin Administrasiyası hazırlayır. Diffamasiyaya görə, cinayət məsuliyyətinin aradan qaldırılması, məqsədilə qanunvericiliyin təkmilləşdirilməsinə dair təklifləri Azərbaycan Respublikası Prezidentinin Administrasiyası hazırlayır.

Miqrantların hüquqlarının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi layihəsinin hazırlanması üzrə işin Azərbaycan Respublikası Prezidentinin Administrasiyası yekunlaşdırmışdır. Beynəlxalq Əmək Təşkilatının 2000-ci il "Analığın mühafizəsi haqqında" və 1981-ci il "Kişi və qadın işçiləri üçün bərabər imkanlar: ailə vəzifələri olan işçilər haqqında" Konvensiyalarından irəli gələn öhdəlikləri nəzərə alaraq, işləyən qadınların və ailə vəzifələri olan işçilərin əmək hüquqları ilə əlaqədar əmək qanunvericiliyini Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Milli Məclisi təkmilləşdirir. Valideyn məsuliyyətinin artırılması və valideyn vəzifələrini tənzimləyən normativ-hüquqi bazanı Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Milli Məclisi təkmilləşdirir. Azərbaycan Respublikasının insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq müqavilələrə qoşulması ilə bağlı tədbirlərin davam etdirilməsi Azərbaycan Respublikası bu gündək Birləşmiş Millətlər Təşkilatının və müxtəlif regional təşkilatların yüzlərlə Konvensiyalarına və digər beynəlxalq müqavilələrinə qoşulmuşdur. Eyni zamanda, insan hüquqları üzrə beynəlxalq hüququn daimi inkişafda olduğunu və yeni beynəlxalq müqavilələrin qəbul edildiyini nəzərə alaraq, Azərbaycan Respublikasının həmin sənədlərə qoşulmasının məqsədəuyğunluğu təhlil edilməli və bu istiqamətdə Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu tərəfindən tədbirlər görülməlidir.

Xarici ölkələrdə Azərbaycan Respublikası vətəndaşlarının hüquqi vəziyyətini yaxşılaşdıran və onların hüquqlarının müdafiəsini tənzimləyən müqavilə-hüquq bazasının genişləndirilməsi üzrə Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının xarici işlər, ədliyyə nazirlikləri, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən tədbirlər həyata keçirilir. Azərbaycan Respublikası hər bir vətəndaşının olduğu yerdən asılı olmayaraq, insan hüquq və azadlıqlarının təmin edilməsi üçün zəruri tədbirləri həyata keçirir. Bu məqsədlə xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqlarının təmin olunmasına dair müvafiq dövlətlərlə və onların səlahiyyətli orqanları ilə müqavilələr bağlanılmalıdır.

Beləliklə, tam əsasla vurğulaya bilərik ki, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" Ulu Öndərimiz tərəfindən təməli qoyulmuş insan hüquqları sahəsində strategiyanın məntiqi davamı və dövlətin növbəti siyasi iradəsi olmaqla, insan və vətəndaş hüquqlarının hərtərəfli həyata keçirilməsinə və onların icra mexanizmlərinin təkmilləşdirilməsinə zəmanət verir.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

səs

Son səhifə 24 avqust

## Yuxusuzluq gərginlik və nevrotik pozuntu yaradır



Yuxusuzluq və yuxu pozuntusu halı ilə demək olar ki, çoxları üzləşib. Yuxusuzluq - yuxuya tam gedə bilməmək, yuxuya getməkdə çətinlik çəkmək, davamlı yata bilməmək problemi deməkdir.

İnsana orta hesabla 7-8 saatlıq yuxu bəs edir. Lakin hər kəsin yuxuya tələbatı fərqlidir. Doğrudur, tələb olunandan daha çox yatdıqda yuxu pozuntusu baş verir. Sağlam insan orqanizmi özü yuxunun nə qədər kifayət etdiyini müəyyən edir. Eləcə də yuxusuzluğun müxtəlif səbəblərdən baş verdiyini nəzərə almaq lazımdır.

Bakı Sağlamlıq Mərkəzinin həkim-nevroloqu Sevinc Salamovanın AZƏRTAC-a verdiyi məlumata görə, yuxu pozulması müxtəlif səbəblərdən ola bilər: “Yuxunun üç cür pozulması ayırd edilir: yuxuya getmə çətinliyi, tez-tez ayılma və ya yuxu müddətinin azalması. Çox vaxt hansısa xəstəliyə tutulanda yuxu ya azalır, ya da çoxalır”.

Problemə düzgün diaqnoz qoyulduqdan sonra müalicəyə başlamaq olar. Lakin bu məsələdə psixoloji amillər də nəzərə alınmalıdır.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi, psixologiya üzrə fəlsəfə doktoru Çimnaz Verdiyeva isə bu barədə bunları deyib: “Klinik problemlər zamanı həkimə müraciət etmək lazımdır. Təşviş və həyəcan pozuntusu olanda isə dərman müalicəsi qəbul edilməlidir”.

Psixoloqun dediyinə görə, problem aradan qaldırılmadıqda orqanizmdə müxtəlif digər problemlər baş qaldıra bilər: “Yuxusuzluq insanın psixo-fiziologiyasına çox mənfi təsir göstərir, bir çox hallarda daxili orqanlarda da problemlərin yaranmasına aparıb çıxara bilər, insanlarla ünsiyyət və rəftarı pozur. İlk növbədə, gərginlik və nevrotik pozuntu yaradır”. Unutmaq olmaz ki, düzgün yuxu rejimi gün ərzində gümrahlıq hissi və pozitivlik bəxş edir. Bunun üçün səbəbindən asılı olmadan yuxu rejimini tənzimləmək lazımdır.

## Ofisdə çalışanlar, yüksək kalorili qidalardan uzaq durun!



Oturaq həyat tərzi sürənlər, xüsusən ofis işində çalışanlar tez-tez həzm sistemində olan problemlərlə üzləşirlər. Belə şəraitdə fəaliyyət göstərənlərdə fiziki aktivlik passivləşir. Bu səbəbdən yenidən yüksək kalorili qidalar əzələlər tərəfindən istifadə edilmir və orqanizmə toplanır. Nəticədə isə artıq çəki problemi yaranır. Bununla üzləşməmək üçün qidalanma zamanı bir sıra qaydalara əməl etmək lazımdır.

AZƏRTAC xəbər verir ki, bu barədə məlumat verən həkim-endokrinoloq Gülay Məmmədova deyib: “Ofis işində çalışanlar daim şəkərli qidalar və asan mənimsənilən şəkərlərdən istifadə edirlər. Lakin həmin qidaları quru meyvələr və yaxud qoz-fındıq və çərəzlərlə əvəz etmək daha yaxşıdır. Yağlı və xəmir yeməklərini, zülal tərkibli qidaları azaltmaq, fast-fud yeməklərlə qidalanmaqdansa onu meyvə və tərəvəz salatları ilə əvəz etmək daha düzgündür”.

Mütəxəssislər səhər işə gedərkən normal qidalanmağın vacib olduğunu söyləyirlər. Ofisdə hazır yeməklərdən istifadə etməmək, fastfuddan uzaq olmaq məsləhət görülür. Meyvə-tərəvəzlərə və onlardan hazırlanmış vitaminli salatlara üstünlük vermək, eləcə də bol su içmək sağlamlığı şərtləndirən səbəblərdəndir. Açıq havada qaçmaq, sürətli yeriş, velosiped, üzgüçülük və bu kimi idman növləri ilə məşğul olmaq da kökəlməmək və formada qalmaq üçün faydalıdır.

## “Milan” Striniçlə yolları ayırdı



“Milan” futbolçusu İvan Striniçlə yolları ayırıb. “Sky Sport Italia” xəbər verir ki, “qırmızı-qaralar” xorvatiyalı müdafiəçinin müqaviləsinə qarşılıqlı razılaşma əsasında xitam verib. Qeyd edək ki, ötən yay “Sampdoriya”dan “Milan” keçən Striniçlə 2 illik müqavilə imzalamışdı. Xorvatiya millisinin üzvü ürəyindəki problemlərə görə “Milan”da heç bir rəsmi oyuna çıxmayıb.

## Azərbaycanlı hakim UEFA Çempionlar Liqasının oyunlarını idarə edəcək



Futzal üzrə FIFA referisi Hikmət Qafarlı yeni təyinat alıb. AZƏRTAC AFFA-ya istinadla xəbər verir ki, H.Qafarlı avqustun 28-dən 31-dək UEFA Çempionlar Liqasının C qrupunun oyunlarını idarə edəcək. Yunanıstanda təşkil olunacaq qrup oyunlarında “Minerva” (İsveçrə), “Blue Magic” (İrlandiya), “Miercurea Ciuc” (Rumıniya) və AEK (Yunanıstan) klubları iştirak edəcəklər.

## Güləşçilərimiz dünya çempionatına hazırlığı davam etdirirlər




Sentyabrın 14-dən 22-dək Qazaxıstanın paytaxtı Nur-Sultanda güləş üzrə dünya çempionatı keçiriləcək. AZƏRTAC xəbər verir ki, ilin ən vacib yarışı Olimpiadaya lisenziya xarakteri daşıyır. Bu səbəbdən yığmalarımız mundiala intensiv şəkildə hazırlığı davam etdirirlər. Yunan-Roma və sərbəst güləş üzrə millilərimiz avqustun 12-dən Göygöl Olimpiya İdman Kompleksində növbəti hazırlığa start veriblər. Bu toplanışda Qırğızıstanın yunan-Roma güləşi üzrə yığması da iştirak edir. Qadın idmançılarımız isə Türkiyədə toplanışda iştirak edirlər. Komandamız Türkiyə yığması ilə birgə Sarıyer şəhərində hazırlıq keçir. Qeyd edək ki, sərbəst və qadın güləşçilərimizin toplanışı avqustun 24-dək, yunan-Roma güləşçilərimizin hazırlıq prosesi isə ayın 30-dək davam edəcək.

## Konor Makqreqor yaşlı kişiyə hücum etdiyinə görə üzr istəyib



Keçmiş UFC (Mütləq Döyüş Çempionatı) çempionu irlandiyalı Konor Makqreqor Dublində barda yaşlı kişiyə hücum etdiyinə görə üzr istəyib. AZƏRTAC TASS-a istinadla xəbər verir ki, o hərəkətindən peşman olduğunu, yaşlı kişinin heç bir günahı olmadığını etiraf edib: “O, bara vaxtını yaxşı keçirmək üçün gəlmişdi və istəməzdi ki, bu hadisə baş versin. Bu hadisədən sonra mən buraya gəlib, məsuliyyəti üzərimə götürməli idim. Günahkar olduğumu etiraf edirəm və düşünürəm ki, insanları bu cür ssenarilərdən qorumaq lazımdır”. Qeyd edək ki, bu il aprelin 6-da K.Makqreqor Dublindəki barların birində öz istehsalı olan viskini içmədiyinə görə yaşlı kişiyə hücum edərək sifətinə yumruqla zərbələr endirib.

K.Makqreqor UFC-nin ən məşhur döyüşçülərindən biridir. Qarışıq döyüş növləri üzrə 25 döyüş keçirib, 21 qələbə (19-u vaxtından əvvəl) qazanıb, dörd dəfə məğlub olub. İrlandiyalı UFC-də ilk titulunu 2015-ci ildə qazanıb. O, fərqli çəkidə eyni vaxtda iki titul qazanan ilk döyüşçüdür.

## “Napoli” tarixinin ən bahalı transferi!



PSV-nin hücumçusu İrvin Losano karyerasını “Napoli”də davam etdirəcək. Bu haqda İtaliya klubunun saytı məlumat yayıb. Meksika millisinin futbolçusuna görə 40 milyon avro təzminat ödənilib. “Bu klubun tarixində ən bahalı transferdir” - deyə məlumatda bildirilib.

Onunla 2024-cü ilin iyununa qədər - 5 illik müqavilə imzalanıb. Qeyd edək ki, ötən mövsüm Losano PSV-nin heyətində Hollandiya çempionatında 30 matçda meydana çıxıb, 17 qol vurub, 11 qolun isə ötürməsini edib.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraz: 4600**